Xalqın qəzeti!

Xalq qəzeti

№ 254 (30370) 22 noyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

Türkiyə zahiri səssizliyi pozdu

"Ermənistan öz təhlükəsizliyini minlərlə kilometr uzaqda deyil, qonşuları ilə əməkdaşlıqda axtarmalıdır". Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciətində dilə gətirib. Ümumən, qardaş ölkənin liderinin mövcud xüsusdakı baxışlarını bir neçə cəhətdən xarakterizə etmək mümkündür.

Birincisi, Türkiyə göstərir ki, son dövrlər Cənubi Qafqaz müstəvisində baş verən proseslərə münasibətdəki zahiri səssizliyinə rəğmən, regionda yaşananlar onun üçün müstəsna əhəmiyyət daşımaqdadır və bütün məsələlər ölkəsinin diqqət mərkəzindədir.

İkincisi, qardaş ölkə Ermənistanın Azərbaycanla sülh mövzusundakı hərəkət və davranışlarının qeyri-ordinarlığını, bölgənin qərarlaşmış siyasi strukturundan kənarlığını görür və mövcud tendensiyaya qarşı Ankaranın qəti mövqeyini ortaya qoyur. Bu, o deməkdir ki, Ermənistan özünün çeşidli manipulyasiyalarından əl çəkməli, konstruktiv mövqe tutmalıdır. Başqa çıxış yolu yoxdur.

(ardı 4-cü səhifədə)

YAP: Azərbaycanı yeniləşdirən partiya

Keçən əsrin 90-cı illərinin əvvəlində 70 illik sovet imperiyasının və totalitar komminist rejiminin süqutundan sonra qazanılmış dövlət müstəqilliyi şəraitində Azərbaycanda da müxtəlif məramnaməli partiyalar yarandı. Onların əksəriyyətinin yaranma zəmini və qarşıya qoyduğu məqsəd oxşar idi: müstəqil Azərbaycan dövlətini demokratik əsaslarla təşkil edib möhkəmləndirmək.

Lakin onlar bu hədəfə çatmaq üçün öz ətrafında önəmli siyasi qüvvə toplaya bilmədiyindən, kütlənin maraq və tələbatına uyğun siyasi xətt müəyyən etməyə qadir olmadığından məhəlli dərnək səviyyəsindən yuxarı qalxa bilmədi. Onlardan yalnız biri – dünya şöhrətli siyasətçi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin ətrafında cəmlənmiş nüfuzlu ziyalılardan və konstruktiv qüvvələrdən idarət Yeni Azərbaycan Partiyası mürəkkəb tarixi dönəmdə cəmiyyətin toparlayıcı və istiqamətverici siyasi mərkəzinə çevrilə bildi. Bu partiya həm məqsəd və hədəflərinin mükəmməlliyinə, həm qurucusunun fenomen zəka, misilsiz nüfuz və qüdrətli iradə sahibi olmasına, həm də hərtərəfli böhrandan çıxmaq yollarını dürüst və aydın şəkildə xalqa qəbul etdirməyi bacardığına görə siyasi arenada mütləq üstünlük qazandı.

(ardı 3-cü səhifədə)

Bakıda qlobal qadın hüquqları çağırışları

Səhifə ⇨ 7

Konqres guruldadı, amma yağa bilmədi...

Deyəsən, ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller təmsil olunduğu qurumun rəhbərinin köməkçisi Ceyms O'Braynın ötən həftə Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasında Ermənistanın təhlükəsizliyi ilə bağlı keçirilmiş dinləmələrdə səsləndirdiyi sərt məntiqi yumşaltmaq qərarına gəlib.

Söhbət O'Braynın İrəvanın təhlükəsizliyinin Qarabağa fokuslanmış çalarlarındakı qəbuledilməzliyin aradan qaldırılması cəhdindən gedir. Görünür, Vaşinqton cənab Millerin yanaşmasındakı pozitivlik göstəriciləri ilə Azərbaycan–Ermənistan sülh nizamlaması müstəvisindəki ənənəvi kursuna geri dönür. Mövzumuz bu barədədir. Ancaq əvvəlcə O'Braynın nələri vurğuladığının şərhini verək.

(ardı 6-cı səhifədə)

Bakıdan "avrotəlimlərə" STOP!

Bir çox hallarda əsas missiyalarının nədən ibarət olduğu bilinməyən avroparlamentarların, kosmopolit siyasətçilərin, bunlardan daha pisi, ermənilərə rəğbət bəsləyən qərbli məmurların Azərbaycana necə işləməyi və necə yaşamağı öyrətmələri özlüyündə kənar müşahidəçidə suallar doğurur. Hələ də kandarında dayandığımız "Avropa evi"nin sahibləri tərəfindən milyonlarla avronun ayrıldığı bu layihələr Azərbaycanda vətəndaş cəmiyyəti institutları ilə yanaşı, dövlət strukturlarlı üçün müxtəlif istiqamətlər üzrə təlimlərin təşkil edilməsini nəzərdə tutur. Yəni, avropalı məmurlar Azərbaycanın nazirlik, komitə və idarələrinə onların standartları ilə işləmək vərdişlərini aşılamaq üçün təlimlər keçirdilər. Ona görə "keçirdilər" yazdıq ki, Bakı artıq belə birgə "kurs-təlimlərin" bir çoxuna son qoymaq barədə qərar qəbul edib.

Azərbaycan dünyaya açıq dövlətdir və istər dövlət strukturlarının, istər qeyri-hökumət təşkilatlarının, istərsə də vətəndaş cəmiyyəti institutlarının müasir standartlara uyğun fəaliyyət göstərməsində hamıdan çox özü maraqlıdır. Son illər adı çəkilən sahələrdə təcrübənin artırılması, çağdaş dünyaya inteqrasiya prosesinin genişləndirilməsi məqsədilə Avropanın bir sıra dövlərlərindən ölkəmizə ekspertlər, təlimçilər gəlməkdədirlər. Bu işləri isə Avropa İttifaqı müxtəlif layihələr, proqramlar çərçivəsində həyata keçirir. Aİ-yə üzv dövlətlərdən "Twinning" konsultasiyaları qaydasında təşkil edilən təlimlərin sxemi benefisiar–ölkələrin dovlət orqanlarına bir ildən üç ilədək müddətə təlimatçıların ezam edilməsini nəzərdə tutur. Avropalı ekspertlər layihənin həyata keçirildiyi həmin dövr ərzində Azərbaycana qısa və orta müddətə təşrif buyurur, təlim-tədris tədbirlərini yerinə yetirirlər.

(ardı 6-cı səhifədə)

Azərbaycan "top"u Ermənistana qaytardı – təklif yox, birbaşa təmas!

Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov bu il noyabrın 4-də Bakıda səfərdə olan Almaniyanın Xarici işlər naziri Annalena Berbok ilə birgə keçirdiyi mətbuat konfransında bildirmişdi ki, ölkəmiz özünün sülh təkliflərini Ermənistana təqdim edib və hazırda həmin təkliflərə cavab gözləyir. Deyəsən, cavab artıq var. Ermənistanın Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki mikrobloqunda yayılmış məlumat bunu deməyə əsas verir. Ancaq məsələ yalnız cavabda deyil. Sonda bunun izahını verəcəyik.

Hələlik isə bildirək ki, Ermənistan XİN-in məlumatında İrəvanın Bakıya sayca altıncı sülh müqaviləsi təklifini çatdırdığı əksini tapıb. "Baş nazir Nikol Paşinyanın Azərbaycanla sülh müqaviləsinin imzalanmasına yönəlmiş diplomatik səylərin gücləndirilməsi barədə noyabrın 18-də verdiyi açıq bəyanatdan sonra Ermənistan tərəfi Azərbaycan tərəfinə altıncı saziş təklifini təqdim edib. Ermənistan əvvəllər bəyan edilmiş prinsiplər əsasında münasibətlərin nizamlanmasına dair sazişin imzalanmasına sadiq qalır", – deyə Ermənistan XİN-in paylaşımında vurğulanır.

(ardı 6-cı səhifədə)

ABŞ-ın Ermənistanı "Qafqazın Ukraynası"na çevirmək planı

Rusiya ilə Ukrayna arasında ötən il fevralın 24-də başlanan müharibədə rəsmi Kiyevi hərtərəfli dəstəkləyən, lakin ciddi uğura nail ola bilməyən kollektiv Qərbin usandığı hiss olunur. Co Baydenin prezident kimi ilk dəfə birbaşa Ağ Evin oval ofisindən çağırış etməsinə baxmayaraq, konqresmenlərin ötən həftə hökumətin müvəqqəti maliyyələşməsi barədə qəbul etdikləri qanunda Ukraynaya və İsrailə maliyyə yardımı ayırmaqdan imtina etmələri bunun göstəricisi hesab oluna bilər.

Qeyd edək ki, Bayden konqresmenlərə Ukrayna və İsrailə yardım paketini təsdiqləməyi təklif etmişdi. Ümumi məbləği 106 milyard dollar olan paketə ABŞ-ın cənub sərhədinin möhkəmləndirilməsi də daxil idi. Burada əsas pay Kiyev üçün nəzərdə tutulmuşdu – 60 milyard dollardan çox. Baydenin təklifinin qəbul olunmamasında Nümayəndələr Palatasında çoxluq təşkil edən sağçı respublikaçıların böyük rolu olub. Onlar İsrailə əlavə hərbi tədarükün əleyhinə deyillər, lakin Ukraynaya yardımın davam etdirilməsinə qarşıdırlar. Konqresmenlər hazırda iki həftəlik məzuniyyətdədirlər. Məzuniyyət başa çatdıqdan sonra onlar istər-istəməz həm İsrail, həm də Ukrayna üçün yeni yardım paketlərini nəzərdən keçirməli olacaqlar. Bununla belə, "Bloomberg" agentliyinin yazdığı kimi, qərar dekabrın ortalarından tez, hətta yeni ildən əvvəl qəbul edilə bilməz.

(ardı 4-cü səhifədə)

Qafqaz lideri və Asiya nəhəngi gələcəyə körpü salır

Səhifə ⇨ 9

“Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Özbəkistan Respublikasının Gənclər Siyasəti və İdman Nazirliyi arasında gənclər siyasəti və idman sahələrində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il avqustun 22-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Özbəkistan Respublikasının Gənclər Siyasəti və İdman Nazirliyi arasında gənclər siyasəti və idman sahələrində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

“Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxananın tikintisi üzrə investisiya qoyuluşu haqqında Saziş”in təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il oktyabrın 12-də Bişkek şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında İssık-Kul gölünün sahilində beşulduzlu mehmanxananın tikintisi üzrə investisiya qoyuluşu haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qırğız Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

“Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il avqustun 22-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

ABŞ Senatının qərəzli mövqeyi qəbuledilməzdir

Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirildi. Birinci məsələnin ABŞ Senatının “2023-cü il ermənilər müdafiə aktı” ilə əlaqədar olduğunu bildirən sədr dedi ki, Azərbaycan 2020-ci ildə öz torpaqlarını işğaldan azad etdikdən sonra Ermənistanla beynəlxalq hüququn prinsiplərinə əsaslanan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış etmişdir. Lakin Qarabağı sözdə Azərbaycan ərazisi kimi tanıyan Ermənistan, təəssüf ki, bu üç il ərzində siyasi və hərbi təxribatlarla məşğul olmuşdur.

Təəssüf ki, Ermənistan sülh naminə çalışmaq əvəzinə hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır, ölkəmizə qarşı kampaniyada bütün imkanlardan istifadə edir. Bu məsələ ilə əlaqədar Azərbaycana qarşı bir sıra qeyri-obyektiv və ədalətsiz qətnamələr qəbul edilmişdir. Bu ədalətsizliyə ABŞ-nin də qoşulduğu təəssüf hissi doğurur.

Noyabrın 15-də ABŞ Senatı “2023-cü il ermənilər müdafiə aktı” adlı sənədi qəbul etmişdir. Elə həmin gün Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsində dinləmələr də keçirilmişdir. Senatın aktında bölgədən könüllü getmiş erməni sakinlərin zorla köçürüldüyü iddia edilir. Bu, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və digər beynəlxalq təşkilatların rəylərinə tamamilə ziddir.

Sonra parlamentin komitə sədrləri və deputatlar ABŞ Senatının ölkəmizə qarşı yönəldilmiş bu ədalətsiz aktı barədə fikirlərini bildirdilər. Deputat Kamilə Əliyevə Milli Məclisin bəyanatını səsləndirdi və sənəd yekdilliklə qəbul edildi.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəlikdəki növbəti məsələni– “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” qanun layihəsini ikinci oxunuşda təqdim etdi. Deputatlar bir sıra təkliflərlə çıxış etdilər.

Maliyyə naziri Samir Şərifov deputatların rəy və təkliflərinə münasibət bildirdikdən sonra 2024-cü ilin dövlət büdcəsi zərfi ikinci oxunuşda qəbul edildi.

əliqismət BƏDƏLOV
XQ

Ruben Vardanyanla Samanta Paueri birləşdirən çirkli dəyərlər

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 il davam etmiş işğalı zamanı bir milyon azərbaycanlının bədnam və qanlı etnik təmizləməyə məruz qaldığı bir vaxtda ABŞ işğalçı Ermənistan dövlətinin yanında dayanıb.

Bu barədə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ABŞ Beynəlxalq İnkişaf Agentliyinin rəhbəri Samanta Pauerin yazısına cavabında sosial şəbəkədə yazıb. Onun fikrincə, sözügedən siyasət indi də eyni formada və təzahürdə davam edir: “Akademik və ya peşəkar qərəzsizliyə iddia etmək düzgün olmazdı, belə ki universitetdə “İnsan haqları” təlimləri professoru kimi, Samanta Pauer “Cəhənnəmdən bir problem: Amerika və soyqırımı çağı” adlı təbliğat kitabında Ermənistanın günahsız mülki azərbaycanlılara qarşı törətdiyi soyqırımı və vəhşilik aktları qarşısında tamamilə susqun qalıb. Birləşmiş Ştatların Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasındakı daimi nümayəndəsi kimi, o, heç vaxt azərbaycanlı qaçqın və məcburi köçkünlərin məsələsini qaldırmağa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini tələb etməyə, hətta Ermənistanın işğalını pisləməyə cəsarət etməyib”.

Eyni zamanda, Hikmət Hacıyev Pauerin Ruben Vardanyanla sıx əlaqələrinin olduğunu və onları “azərbaycanofobiya” kimi “dəyərlər və maraqların” birləşdirdiyini xatırladıb: “Avrora” mükafatı çətiri altında Samanta Pauer bu fondun təsisçisi, Ukraynada separatizmi maliyyələşdirən məşhur oliqarx və çirkli pulların yuyulması ilə məşğul olan Ruben Vardanyanla bir araya gəlib. Maraqlıdır ki, 2019-cu ildə Avropa Parlamentinin üzvləri “Troyka Dialoq”un təsisçisi Ruben Vardanyana qarşı çirkli pulların yuyulması sxemlərinə görə

sanksiyalar tələb ediblər.

Azərbaycanofobiya, türkfobiya, siyasi korrupsiya, “pulbazlıq” və qondarma “Avrora” mükafatı altında siyasi spekulyasiyalar, yəqin ki, Ruben Vardanyan və Samanta Pauer arasında paylaşılan dəyərlər və maraqlar idi.

Maskanı çıxarın! Artıq Azərbaycanda USAID-in əməliyyatlarına yer yoxdur!”.

Aman Tuleyevin doğmalarına və yaxınlarına

Rusiyanın görkəmli dövlət və ictimai-siyasi xadimi Aman Qumiroviç Tuleyevin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Aman Tuleyev Azərbaycanın böyük dostu idi. O, Azərbaycan ilə Rusiya arasında ənənəvi dostluq əlaqələrinin genişlənməsinə, xalqlarımız arasında qarşılıqlı anlaşma və etimad mühitinin möhkəmlənməsinə sanballı töhfə verib. O, Azərbaycan–Rusiya dostluq əlaqələrinin və əməkdaşlığının inkişafında müstəsna xidmətlərinə görə Azərbaycan Respublikasının “Dostluq” ordeni ilə təltif edilib.

Aman Tuleyevin Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsinə münasibətini Azərbaycanda həmişə yüksək qiymətləndiriblər.

Aman Qumiroviç Tuleyevin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq.

Bu ağır itki ilə əlaqədar kədərinizi bölüşür və sizə dərin hüznlə başsağlığı verirəm.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi Mirsaleh Miradil oğlu Seyidova ədliyyə general-mayoru ali xüsusi rütbəsi verilsin.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Strateji planlaşdırma və monitorinq baş idarəsinin rəisi Cavid Ənvər oğlu Hüseynova III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədliyyə orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilsinlər:

Abasova Könül Əlisəfər qızı
Abbasov Nazim İsa oğlu
Abışov Vüqar İdris oğlu
Ağayev Rüfət Salman oğlu
Eyvazov Xəyal Astan oğlu
Həsənli Rəşad İsmayıl oğlu
Həsənov Zaur Rauf oğlu
Hüseynov Rəşad Tofiq oğlu
Qəhrəmanov Vüqar İmambala oğlu
Mehralıyev Azər Umudvar oğlu
Sabitova Aynur Zakir qızı.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989–2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilmişdir. Bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub İslam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il

“Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf” mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları,
Hörmətli xanımlar və cənablar,

Sizi “Dekolonizasiya: Qadınların gücləndirilməsi və inkişaf” mövzusunda keçirilən beynəlxalq konfransın açılışı münasibətilə salamlayıram. Müxtəlif qitələri təmsil edən 18 ölkədən 40-dan artıq təmsilçinin növbəti dəfə Bakıya toplaşaraq, XXI əsrdə təəssüf ki, hələ də davam edən kolonializm siyasətini pisləməsi, müstəmləkə altında saxlanılan ərazilərdə qadınların vəziyyətinə dair gerçəkləri dünya ictimaiyyətinə çatdırması, müstəmləkəçiliyin aradan qaldırılması istiqamətində sistemli və ardıcıl iş aparması və təşkilatlanması sevindirici haldır.

Azərbaycanda tarixən qadına göstərilən hörmət, qadın adının uca tutulması xalqımızın ən ali mənəvi keyfiyyətlərindən biridir. Azərbaycan qadınları tariximizin bütün dövrlərində taleyüklü məsələlərin həll edilməsinə, habelə xalqımızın azadlıq mübarizəsində və torpaqlarımızın Ermənistan Respublikasının işğalından azad edilməsinə öz töhfəsini vermişdir.

Qoşulmama Hərəkatının sədri kimi, Azərbaycan Respublikası hər zaman bəşəriyyət üçün aktual olan məsələlərə xüsusi diqqət ayırmış, xalqların üzləşdiyi ədalətsizliklərin aradan qaldırılması istiqamətində səmərəli iş aparmışdır. Bu xüsusda, qadın və kolonializm mövzularının bir araya gətirilməsi, dekolonizasiya prosesində qadınların rolunun gücləndirilməsi zamanın tələbidir. XXI əsrdə qadınların təəssüf ki, hələ də koloniyalarda köləliyə və istismara məruz qalması fundamental insan hüquqlarından məhrum olması deməkdir.

Azərbaycan kolonializmin hələ də davam etməsindən, xüsusilə koloniyalarda qadın və uşaqların hüquqlarının kobud şəkildə pozulmasından olduqca narahatdır. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir.

Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub–Şərqi Asiya, Sakit Okean, Atlantik və Hind Okeanı regionunda, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı Fransanın qul siyasətinin qurbanı olmuşdur.

Mən Qoşulmama Hərəkatının sədri kimi bir neçə dəfə Fransanın işğal etdiyi ölkələrdə həyata keçirdiyi insanlıq əleyhinə çoxsaylı cinayətləri, törətdiyi vəhşilikləri faktlarla sadalamışam. Əlcəzair, Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Benin, Kot-d’İvuar, Mərkəzi Afrika Respublikası, Qabon, Toqo, Kamerun, Vyetnam, Qəmər Adaları İttifaqı, Haiti və digər ölkələrdə bir neçə milyon günahsız insan, o cümlədən qadınlar və uşaqlar Fransa tərəfindən qətlə yetirilib. Fransa, eyni zamanda, 1994-cü ildə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünün öldürülməsində birbaşa məsuliyyət daşıyır.

1975-ci ildə Qəmər Adaları İttifaqının Mayot da daxil olmaqla arxipelaqın müstəqilliyini elan etməsinə və BMT Baş Assambleyasının (BA) Qəmər dövlətinin Mayot adası üzərində suverenliyini təsdiq etməsinə baxmayaraq, Fransa bu gün də Mayot adasını öz departamenti kimi idarə etməkdə davam edir.

BMT BA 20-dən artıq qətnamə qəbul edərək Qəmərin Mayot adası üzərində suverenliyini təsdiq edib. BMT həmçinin Fransa hökuməti tərəfindən Qəmər arxipelaqının Mayot adasında təşkil edilmiş referendumları pisləyib və etibarsız hesab edib. Eyni zamanda, Qəmər arxipelaqının Mayot adasında bundan sonra Fransa tərəfindən hər hansı digər formada referendum və ya məsləhətləşmələr təşkil edilməsini, adıçəkilən adada istənilən formada Fransız müstəmləkəçiliyini leqallaşdıran hər hansı bir xarici qanunu rədd edib. Həmin qətnamədə BMT Mayot adasının Fransa tərəfindən işğalını BMT-nin üzvü olan Qəmərin milli birliyinə kobud qəsd kimi qiymətləndirib. BMT BA-nın çoxsaylı qərarlarına baxmayaraq, Fransa beynəlxalq hüququ kobud şəkildə pozaraq, Mayot adasında bundan sonra da referendumlar keçirib. Bu səbəbdən referendumların nəticələri qeyri-qanunidir.

BMT ilə yanaşı, Afrika İttifaqının İcraedici Şurası və İslam Əməkdaşlıq Təşkilatı da Mayot adasının Qəmərə aid olması ilə bağlı qərarlar qəbul edib. Beynəlxalq təşkilatların və beynəlxalq birliyin çağırışlarına məhəl qoymayan Fransa 2003-cü ildə Mayotu öz konstitusiyasına daxil edib. 2011-ci ildə Mayot Fransanın 101-ci departamenti, 2014-cü ildə isə Avropa İttifaqının ultraperiferik bölgəsi olmuşdur. Mayota Aİ-nin ultraperiferik bölgəsi statusunun verilməsi faktı Mayotun Fransanın tərkib hissəsi kimi tanınmasıdır.

Göründüyü kimi, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan sui-istifadə edərək və beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqda davam edərək başqa ölkənin ərazisini zorakı yolla öz ərazisinə qatıb. Bu, açıq-aşkar işğal və anneksiyadır.

Əsrlər keçsə də, siyasət və təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları bu gün də davam etməkdədir. Bu konfransa toplaşan dənizaşırı ərazilərin xalqları uzun illərdir müstəqillik uğrunda mübarizə aparırlar. Kolonializm tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit, Hind və Atlantik okeanlarında dənizaşırı icma və ərazilərində yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır. Həmçinin Afrika qitəsindəki keçmiş müstəmləkələrinin daxili işlərinə kobud müdaxilələr etməkdə davam edir, burada stabilliyin əldə edilməsinə mane olur. Fransa kolonializmi barədə dənizaşırı regionlardan olan siyasətçilərin səsləndirdiyi fikirlər dəhşət doğurur.

Fransa təkcə keçmiş və indiki müstəmləkələrində deyil, eyni zamanda, bizim regionumuzda – Cənubi Qafqazda stabilliyi pozur, separatizm meyillərini və separatçıları dəstəkləyir. Ermənistanı silahlandırmaqla militarist siyasət həyata keçirir, revanşist qüvvələri təşviq edir, regionumuzda yeni müharibələrin başlaması üçün zəmin hazırlayır. Eyni zamanda, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur, Qərb təşkilatlarını digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə cəhdlər edir.

Fransa Beynəlxalq Ədalət Məhkəməsinin Sakit Okeanda keçirdiyi nüvə sınaqları ilə bağlı qərarlarını yerinə yetirməli, başqa dövlətlərə dərs keçmək praktikasına son qoymalıdır.

Biz Fransada neokolonializm meyilləri ilə paralel olaraq irqçilik, ksenofobiya və islamofobiyanın da geniş vüsət aldığını müşahidə edirik. Bu cür narahatedici və təhlükəli meyillərlə mübarizə aparmalı olan Fransa hakimiyyəti daxilindəki ciddi problemlərə diqqət ayırmalıdır. Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan qovulması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləyir. Sizin 2023-cü ilin 6 iyul və 20 oktyabrında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Bakıda keçirilən Nazirlər Toplantısı zamanı, həmçinin cari ilin 22 sentyabrında Nyu-Yorkda BMT BA-nın qərargahında, bu gün isə yenidən Bakıda bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən kolonializm, onun fəsadları və neokolonializmlə mübarizəyə həsr olunmuş tədbirdə iştirakınız Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi bu məsələyə göstərdiyi dəstəyinin əyani göstəricisidir.

Neokolonializmlə mübarizə mövzusunun bütün mümkün platformalar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması olduqca vacibdir. Bu xüsusda, BMT Baş Assambleyasının 4-cü Komitəsinin fəaliyyəti və beynəlxalq təşkilatlar çərçivəsində mübarizə daha da canlandırılmalıdır. Qadınların rolu daha da gücləndirilməli, onların dekolonizasiya yolunda mübarizəsinə daha güclü dəstək verilməlidir.

Bugünkü konfrans kolonializm, onun fəsadları və neokolonializmlə mübarizə ilə bağlı qlobal gündəlikdə dayanan çağırışlar və imkanların müzakirəsi üçün əlverişli fürsətdir. İnanıram ki, konfrans çərçivəsində aparılacaq müzakirələr kolonializmə qarşı mübarizə sahəsində birgə səylərin səfərbər olunmasına, bəşəriyyətin rifahı və gələcək nəsillərə “kolonializmdən azad dünya” miras qoymaq məqsədilə yeni ideya və təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 noyabr 2023-cü il

YAP: Azərbaycanı yeniləşdirən partiya

(əvvəli 1-ci səhifədə)

Adda “yeni” sözü adi hadisə deyildi. Cəmiyyət bunu sonralar daha dərindən dərk etsə də həmin dövrdə Ulu öndər Heydər Əliyev “Yeni Azərbaycan” ifadəsinə hansı dərin siyasi, ideoloji, mənəvi-əxlaqi, tarixi və müstəqil milli dövlətçilik mənalarını verdiyini çox gözəl bilirdi. Yeni tipli demokratik partiyanın qurucusu onu da aydın dərk edirdi ki, “YAP” abbreviaturasını populyarlaşdırmaq asan olmayacaq. Tarix və reallıq öz sözünü dedi. Partiyanın adındakı “yeni” sözü öz tarixi kökləri üzərində tərəqqi edən böyük bir millətin novatorluğa hazır olduğunu ifadə edirdi! Ulu öndər türk tarixində xüsusi rəmz olan ağacı və onun üzərində çəkilmiş rəsmləri ənənədən müasirliyə keçidin olduqca maraqlı təcəssümünə çevirmişdi. Həmin rəmzdə daxili birlik, köklərə bağlılıq, ənənəyə sadiqlik orijinal şəkildə əksini tapmışdır!

“Yeni Azərbaycan” ifadəsi də məhz bu bağlılıqda xüsusi əhəmiyyət kəsb edir. Partiyanın siyasi-ideoloji, qurucu, təşkilati fəaliyyətinin kökündə həmin möhtəşəm tarixi-fəlsəfi özəllik dayanırdı. Müstəqil dövlətin memarı və qurucusu YAP vasitəsilə Azərbaycana, regiona və dünyaya mesaj verirdi – Azərbaycan həmişə olduğu kimi, indiki mərhələdə də yeniləşməyə istiqamətlənib və YAP buna nail olacaq!

YAP-ın timsalında “Yeni Azərbaycan” nə deməkdir? Hər şeydən öncə, müasirləşən, dinamik, müstəqil, milli, tolerant, multikultural toplumun çiçəklənən güclü dövləti! Partiyanın rəmzində də ifadə olunduğu kimi, hər cür təsirlərə, çətinliklərə, “tufanlara” sinə gərib dik dayana bilən, dinamik yeniləşən ölkə!

Odur ki, YAP 31 ildir Yeni Azərbaycanın aparıcı, hakim siyasi təşkilatıdır. Bu siyasi-ideoloji platformada dövlətçilik, liderlik, siyasi varislik ənənəsindən tutmuş, qabaqcıl və uğurlu siyasi-ideoloji mövcudluq, konstruktiv fəaliyyət, nəticəli praktiki-siyasi və ideoloji fəaliyyət vardır! Həmin səbəbdəndir ki, müstəqil Azərbaycanın 31 illik tarixi həm də YAP-ın analoji tarixidir. Bu müddət ərzində partiya xilasedici, qurucu, birləşdirici, qalib lideri Heydər Əliyev və Prezident İlham Əliyevin tapşırıqlarını yerinə yetirməyə can atan, fəallıq göstərən, qurbanlar verən, qəhrəmanlar yetişdirən “canlı siyasi orqanizm” olmuşdur!

Buraya hansı hadisələr, proseslər daxil deyil ki? YAP keçən əsrin keşməkeşli, ziddiyyətli və kənardan olan güclü təsirlərinin yaratdığı gərgin sosial-psixoloji, ideoloji və hərbi risklərlə dolu böhranlara qalib gələn bir partiyadır. Partiya ilk günlərdən bütün istiqamətlərdə öz banisinə dəstək verdi və eyni zamanda, sürətlə böyüdü. Onu heç bir maneə dayandıra bilmədi! Çünki Liderini dayandıra bilmədilər! Onu heç bir qüvvə çəkindirə bilmədi, axsada bilmədi, çünki öz-özünü daxildən təmizləməyi bacardı və bu keyfiyyətdə daim Liderinin arxasınca getdi!

YAP elə bir partiya oldu ki, dünya tarixində nadir hallarda rast gəlinən və Liderinə cəmiyyətin bütövlükdə mövcud sosial-iqtisadi, siyasi, mədəni, ideoloji quruluşunu yeniləşdirməklə bağlı həyata keçirdiyi kursa daim dəstək verən təşkilat kimi siyasi tariximizdə yer tutdu! Çünki cəmiyyəti kökündən, əhatəli və uğurla yeniləşdirmək yalnız uğurlar müjdəçisi Ümummilli liderə nəsib oldu! YAP Azərbaycanda Ümummilli liderin partiyası miqyasına yüksələ bildi! YAP Azərbaycanda yeganə partiyadır ki, qurucusu və sədri Ümummilli liderdir! 31 ildir ki, Azərbaycan cəmiyyəti bununla qürur duyur!

Bugünlərdə partiya ərsəyə gəlməsinin 31-ci ildönümünü yüksək fəxarətlə qeyd edir, bu tarixin öyüncünü daxilən yaşayır! Çünki YAP qurucusunun siyasi varisi Prezident İlham Əliyev həm də bu partiyanın Sədri kimi Müzəffərdir, Qalibdir və yeni səviyyədə Azərbaycanı Yeniləşdirəndir! Buna şərti olaraq Azərbaycanın “ikinci yeniləşmə mərhələsi” deyə billərik!

Avrasiya məkanında ikinci elə bir partiya yoxdur ki, bu dərəcədə uğurla, kəsintisiz irəli getsin – özünü, cəmiyyəti və dövləti yeniləşdirmənin yeni mərhələsinə böyük Zəfərlə keçə bilsin! Çox qısa bir zaman çərçivəsində Azərbaycan Prezidenti və YAP Sədri İlham Əliyev həm ölkənin ərazi bütövlüyünü bərpa etdi, həm də tam suverenliyə nail oldu! Yeni Azərbaycan Partiyası sədrinin müdrikliyi, strateji zəkası, idarəetmə və siyasi-diplomatik məharəti ilə tarixin yeni səhifələrini yazmaqda və yeni imkanlar açmaqdadır!

Partiya üçün 31 il az müddət deyil. YAP üçün isə yetkin bir tarixdir. İndi partiyanın hər bir üzvü kimi, hər bir azərbaycanlı üçün də Prezident Yeni Uğurlu Liderlik nümunəsidir, çox qüdrətli dövlət başçısıdır! Bu potensial YAP-ı yeni qələbələrə, önündə getdiyi Azərbaycan dövlətini tərəqqinin yeni zirvəsinə doğru aparır.

Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru

ABŞ Senatı Ermənistandakı revanşist qüvvələrə açıq dəstək verir

Milli Məclis ABŞ Senatının “2023-cü il ermənilər müdafiə aktı” ilə əlaqədar Bəyanat qəbul edib. Sənəddə qeyd edilib ki, Milli Məclis bu il noyabrın 15-də ABŞ Senatının “2023-cü il ermənilər müdafiə aktı” qəbul etməsinə qəti etirazını bildirir və ölkəmizi hədəf alan bu hərəkəti şiddətlə qınayır.

Bununla birlikdə, Milli Məclis həmin gün ABŞ Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsində keçirilmiş dinləmələri, orada ölkəmiz əleyhinə səslənən çıxışları, ümumiyyətlə, son dövrdə ABŞ dövləti rəsmilərinin Azərbaycana qarşı ifadə etdikləri qərəzli fikirləri iki ölkə arasında strateji münasibətlərə ciddi zərbə kimi qiymətləndirir. Sözügedən aktın qəbul edilməsi və Azərbaycana qarşı irəli sürülən əsassız ittihamlar regionda sülh və sabitlik yaradılması səylərinə ciddi maneçilik törədir.

Sənəddə daha sonra qeyd edilir ki, Bayden Administrasiyasının təhriki ilə anti-Azərbaycan, korrupsiyaçı, islamofob senatorların saxta məlumatları əsasında ABŞ Senatının qəbul etdiyi akt ikili standartların və selektiv yanaşmanın növbəti bariz nümunəsidir. ABŞ Senatı belə bir aktı qəbul etməklə revanşist qüvvələrə açıq dəstək verir. Absurd teatr səhnəsini xatırladan dinləmələr isə ABŞ-ın riyakar siyasətinin yeni bir təzahürüdür.

Ermənistanın Azərbaycana qarşı işğalının genişləndiyi 1992-ci ildə ABŞ tərəfi BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi Azərbaycan xalqına qarşı qətliamların qarşısını almağa səy göstərmək əvəzinə, bu ölkənin qanunvericilik orqanı erməni təbliğatının təsiri altında “Azadlığa dəstək aktı” adlanan qanuna 907-ci düzəlişi qəbul etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrdə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnamədə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı

birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Lakin Amerika Birləşmiş Ştatları özünün də lehinə səs verdiyi bu sənədlərin Ermənistan tərəfindən yerinə yetirilməsi üçün heç bir tədbir görməmiş və bu ölkəyə qarşı hər hansı sanksiya tətbiq etməmişdir.

Bəyanatda deyilir ki, “Azadlığa dəstək aktı”na 907-ci düzəlişin tətbiqinin dayandırılmasını ləğv etməklə ABŞ tərəfi Azərbaycana qarşı 1992-ci ildə yol verdiyi tarixi səhvi, təəssüf ki, yenidən təkrarlayır. Qondarma “Dağlıq Qarabağ Respublikası” özünü buraxdığını elan etdikdən sonra Amerikanın onu müdafiə etməsi siyasi riyakarlıq olub regionda vəziyyətin yenidən gərginləşməsinə xidmət edir. Sözdə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan ABŞ tərəfi məhz ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdikdən sonra Azərbaycana qarşı qeyri-dost addımlarını intensivləşdirməklə ikiüzlü siyasət yeritdiyini ortaya qoymuşdur.

Bəyanatın sonunda bildirilir: “Milli Məclis bir daha bəyan edir ki, Azərbaycan həmişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq öhdəliklərinə uyğun hərəkət edərək, öz milli maraqlarına zidd olan bütün mənfi addımları qətiyyətlə və adekvat şəkildə cavablandıracaqdır”.

XQ

Türkiyə zahiri səssizliyi pozdu

Prezident Ərdoğanın Ermənistanla bağlı açıqlaması məğlub ölkəyə ciddi mesajdır

(əvvəli 1-ci səhifədə)

Üçüncüsü, "Bəzi Qərb dövlətləri hələ də Qarabağ müharibəsi ilə regionumuzda yeni dövrün başlandığını anlamırlar" – deyən cənab Ərdoğan, əslində, Ermənistanın tutduğu yolda Qərb dövlətlərinə güvənməsini də qabardır və hər iki tərəfə xəbərdarlıq edir.

Dördüncüsü, Qərb dövlətlərinin regiondan minlərlə kilometr uzaqda olduğu məntiqinin qabardılması üzərində dayanaq. Bu məqam kifayət qədər vacibdir. Ankara tərəfindən məsələnin məhz belə tərzdə qoyulması o deməkdir ki, regionun qlobal aktoru kimi, Türkiyə Qərbin Cənubi Qafqaz fəallığındakı parametrləri diqqətdə saxlayır və onun üçün müəyyən "qırmızı cizgilər" var. Nəzərə alaq ki, ümumən regionla bağlı baş verən proseslərə, ilk baxışdan, səssiz kimi görünən Türkiyə vəziyyətin gərginləşdiyi anlarda operativ reaksiyasını gecikdirmir. Ərdoğanın fikirləri də, əslində, həmin reaksiyanın göstəricisidir. Deməli, kimlərsə "qırmızı cizgiləri" aşmağa cəhd göstərirlər və onlar Ermənistanı öz oyunlarına alət etməkdədirlər. Türkiyə lideri Ermənistan müstəvisində həm də məhz bu yolu tutanlara səslənir.

Beşincisi, bilavasitə Ermənistanın təhlükəsizliyi üzərində dayanaq. Məlum olduğu kimi, son ayyarımlıq müddətdə, xüsusən son bir neçə həftədə məsələ Qərbin, o cümlədən, ABŞ-ın ayrı-ayrı siyasi platformalarında, ekspert cameələrində önə çəkilməkdədir. Mövcud xüsusda ən müxtəlif fikirlər irəli sürülməkdədir. Paralel olaraq, Ermənistanın silahlandırılması vüsət alıb. Cənab Ərdoğanın fikirləri həm də bunlara qarşıdır. Deməli, Ankara qüvvələr balansını Ermənistanın xeyrinə dəyişdirmək cəhdləri ilə barışmayacağını ortaya qoymaqdadır. Nəzərə alaq ki, vacib dövlət sənədlərində Türkiyəyə qarşı ərazi iddiasının əksini tapdığı İrəvanın güclü olması Ankaranın strateji planları üçün nonsensdir.

Altıncısı, sülh və əməkdaşlıq prioritetinə gəldikdə, Türkiyə liderinin fikirləri onu göstərir ki, Ermənistan üçün biçilmiş bəlli regional nizam var. Yəni, onun gücləndirmək cəhdləri Cənubi Qafqaz siyasi akvatoriyası baxımından tam zidd məsələdir. Bu düzən özünün siyasi oyunçularına malikdir və onlar heç bir halda İrəvanı həlledici faktor kimi görmürlər. Ermənistan özünün konyakını, əriyini, və digər kənd təsərrüfatı məhsullarını satmaqla dolanmalı, təklif olunan digər iqtisadi layihələrdə iştirakdan pay götürərək, əhalisinin yaşam səviyyəsini artırmalı, savaş və qarşıdurma kimi sərt məqamlardan çəkinməlidir. Yalnız bu halda sülh mümkündür.

Yeddincisi, Türkiyə lideri hazırkı həssas durumda İrəvan üçün çox dəqiq amplua müəyyənləşdirir. Söhbət cənab Ərdoğanın "Təxribat törədərək Ermənistanı kirayəyə götürənlər, əslində, ermənilərə ən böyük ziyan vurublar" məntiqindən gedir. Bu ifadə kənardan İrəvanın vizyonu kimi dəyərləndirilə bilər. Nəzərə alaq ki, eyni ritorikanı hazırda Rusiya da tez-tez səsləndirməkdədir. Deməli, Ermənistan hakimiyyətinin hazırda beynəlxalq siyasət şəklində göstərməyə cəhd etdiyi motivlərə münasibətdə regionun aktorlarının loyal mövqeyi yoxdur. Əksinə, erməni iqtidarının hərəkətləri oyun qaydalarının pozulması kontekstində qiymətləndirilməkdədir. Şübhəsiz, belə bir qiymətləndirmə əks addımları da şərtləndirə bilər. İrəvan məsələnin ciddiliyini anlamalıdır. Bu, nə qədər tez baş versə, bir o qədər yaxşıdır. Hələlik Ermənistan gecikir. Türkiyə lideri açıqladığı düşüncələrlə həm də bu gecikmənin özünü qabarıq şəkildə göstərdiyini vurğulamaqdadır.

Ümumən, Cənubi Qafqazla bağlı qlobal iqtisadi planlarda gecikmə var. Heç şübhəsiz, bu gecikməyə görə müqəssir Ermənistandır. "Dünya kəşişməsi" avantürasını irəli sürən və bununla ölkəsinə əlahiddəlik qazandırmağa cəhd göstərən N.Paşinyan öz aləmində yeni reallıq formalaşdırmaq niyyəti də güdməkdədir. Halbuki, belə bir niyyəti gerçəkləşdirmək naminə ortaya qoya biləcəyi nə siyasi, nə iqtisadi, nə də mənəvi resurs var. Ərdoğanın ismarıcı fikrimizin təsdiqidir. Deməli, İrəvan əvvəlcə etimad qazanmalı və onu doğrultmağa çalışmalıdır. Amma bunu anlamayacaq qədər iflicdir.

Bəli, Ermənistan onu da nəzərə almalıdır ki, beynəlxalq miqyasda demonlaşdırmağa çalışdığı Azərbaycan və Rusiya ilə yanaşı, Türkiyə də ona qarşıdır. Üstəlik, hazırda İranın da baş nazir Nikol Paşinyan hakimiyyətinə münasibəti rəvan deyil. Çünki Nikol və komandası Qərbi İranın burnunun dibinə gətirmək yolu tutub. Bu, "region regonlular üçün olmalıdır" məntiqini əsas götürən Terhrana, heç bir halda, sərfəli deyil, əksinə, zərərlidir. Deməli, Türkiyə kimi İran da İrəvanın hazırkı kursundan məmnun ola bilməz.

Ən başlıca məqam isə budur ki, Türkiyə lideri hazırda regionda gedən proseslər fonunda Ermənistanın və erməni xalqının bilavasitə ziyan görə biləcəyinin anonsunu verir. Bu anons İrəvanın odla oynaması ilə bağlı xəbərdarlıq kimi də dəyərləndirilə bilər. Cənab Ərdoğan bildirmək istəyir ki, İkinci Qarabağ müharibəsindən sonrakı düzənin reallıqlarını dəyişdirmək cəhdləri uğursuzluğa düçar olacaq.

Ə.RÜSTƏMOV
XQ

ABŞ-ın Ermənistanı "Qafqazın Ukraynası"na çevirmək planı

Vaşinqton və onun Avropa müttəfiqləri Cənubi Qafqazda yeni münaqişə ocağı yaratmaq niyyətini gizlətmirlər

(əvvəli 1-ci səhifədə)

Məsələyə münasibət bildirən ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan deyib ki, yardımların ixtisarı "Ukraynaya lazım olan hər şeyi vermək qabiliyyətimizə təsir edir və bu, zaman keçdikcə daha da pisləşəcək".

Doğrudur, həm respublikaçı, həm də demokrat konqtresmenlər Kiyevə yardımın tamamilə kəsilməsini istəmirlər. Lakin istənilən halda Ukraynaya ayrılan vəsaitin məbləği Baydenin tələb etdiyindən xeyli az olacaq.

Avropanın şərqində Rusiya–Ukrayna müharibəsinin timsalında gərginlik ocağının yaranmasında mühüm rola malik olan, lakin istədiyinə nail ola bilməyən və Kiyevi meydanda tək qoymağa hazırlaşan ABŞ-ın nəzərləri son vaxtlar Cənubi Qafqaza daha çox yönəlib. Vaşinqton Azərbaycanın 2020-ci ildə Vətən müharibəsi, 2023-cü ildə isə lokal xarakterli antiterror tədbirləri keçirərək öz torpaqlarını azad etməsini, suverenliyinin bərqərar olunmasını qəbul edə bilmir. ABŞ və onun Avropadakı müttəfiqləri Cənubi Qafqazda yeni münaqişə ocağı yaratmaqda maraqlarını gizlətmirlər.

İşğal dövründə Azərbaycanı yaranmış reallıqlarla barışmağa çağıran ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri olmuş həmin ölkə indi Ermənistana bənzər çağırış etmir. Vaşinqton nəinki İrəvanı Azərbaycanın regionda yaratdığı reallıqları qəbul etməyə çağırmır, əksinə atdığı bir sıra addımlarla onu revanşizmə sövq edir. ABŞ Konqresinin Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan edən 907-ci düzəlişdən imtina müddətini uzatmaması bunun bir göstəricisidir. Noyabrın 15-də Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələrin keçirilməsi isə ABŞ-ın Azərbaycana münasibətdə ədalətsiz mövqeyinin növbəti təzahürü oldu. Həmin dinləmələrin absurdluğu elə adından bəlli idi. "Dağlıq Qarabağın gələcəyi" adlı dinləmədə Azərbaycanın ayrılmaz parçası olan Qarabağ iqtisadi rayonu ilə bağlı məsələni müzakirə etmək ölkələrin suverenliyinə, beynəlxalq hüquqa ən böyük hörmətsizlik idi ki, Vaşinqton bunu da özünə rəva gördü.

Onu da qeyd edək ki, ABŞ Cənubi Qafqazda hər zaman destruktiv rol oynayıb. Həmin destruktiv siyasətin əsasının qoyulması 1980-ci illərin sonlarına təsadüf edir. ABŞ əzəli və əbədi rəqibi SSRİ-nin dağılması üçün keçmiş İttifaq məkanında millətlərarası münaqişələrin baş verməsində maraqlı idi. Vaşinqton millətlərarası münaqişəyə SSRİ-nin dağılmasının bir elementi kimi yanaşırdı. ABŞ hər zaman Qarabağ ermənilərinin separatçılıq meyillərini qızışdırırdı. 1990-cı illərin əvvəlindən isə ABŞ Qarabağ ermənilərinin separatçılığını aşkar şəkildə dəstəkləməyə başladı. ABŞ Qarabağ işğal altında olduğu müddətdə buradakı qondarma separatçı rejimə hər il öz büdcəsindən maliyyə yardımı ayırırdı. Vaşinqtonun Qarabağdakı separatçılara minatəmizləmə adı altında ildə on milyon dollarla vəsait ayırması, "Hayastan" Fondunun ABŞ-da marafonlar keçirib pul yığmalarına şərait yaradılması, rejimin bu ölkədə nümayəndəliyinin fəaliyyətinə imkan yaradılması danılmaz faktlardır. Təkcə bu faktlar ABŞ-ın Azərbaycana, beynəlxalq hüquqa, ölkələrin ərazi bütövlüyünə, suverenliyinə münasibətinin göstəricisi sayıla bilər.

Bu gün isə ABŞ Qarabağda Azərbaycanın yeni reallıqları ilə barışmayaraq, özünəməxsus reallıqlar yaratmağa çalışır. Hazırda bölgədə separatçılığa dəstək verilməsini başqa cür izah etmək mümkün deyil. ABŞ-ın bu əməlləri onun BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri kimi nə roluna, nə də missiyasına uyğun gəlir.

Ancaq Vaşinqtonda unudurlar ki, Azərbaycanın regionda yaratdığı yeni reallıqları dəyişmək qeyri-mümkündür. Bu gün Azərbaycan güclü, özünün milli maraqlarını hər şeydən üstün tutan, müstəqil xarici və daxili siyasət yürüdən dövlətdir. Əgər torpaqlarımızın işğal altında, ökəmizin nisbətən zəif olduğu dövrdə Vaşinqton Azərbaycana təzyiq göstərərək öz istəyini həyata keçirə bilməyibsə, indiki halda çətin ki, buna nail ola.

Səxavət HƏMİD
XQ

Ekspert rəyi

Rizvan HÜSEYNOV,
hərbi-siyasi şərhçi

– ABŞ-ın, daha konkret desək, hakimiyyətdə olan demokratların siyasəti nəinki bizim regionda, dünyanın heç bir yerində sülhə və sabitliyə xidmət etmir. Biz görürük ki, ABŞ istər Yaxın Şərqdə, istər Cənubi Qafqazda xaos yaratmaqla hansısa məkrli siyasətini icra etmək istəyir. Burada ABŞ tək deyil, Fransa və digər Qərb ölkələrinin də dəstəyi var. İndi onlar Ermənistana dəstək verməklə 44 günlük Vətən müharibəsindən sonra yaranmış reallıqları dəyişmək istəyirlər. Həmçinin yeni tranzit-nəqliyyat layihələrinin, dəhlizlərin açılmasının qarşısını almağa çalışırlar. Burada ABŞ-ın məxsusi maraqları var.

Yaxın Şərqdəki münaqişədə də Vaşinqtonun öz marağı mövcuddur. Bu məsələlər heç də təsadüfi deyil. Eyni zamanda, Ukrayna da qurban verilir. Ukraynadakı müharibə ABŞ-ın bir layihəsi idi və burada Rusiya da istifadə olunurdu. Yəqin ki, indiki mərhələdə ABŞ istədiyinə nail olub. Ukraynadakı müharibə həm Rusiyanı, həm də Avropanı çökdürməkdə ABŞ-ın işinə yaradı. İndi də Yaxın Şərqdəki münaqişələrlə yeni düzən yaratmaq istəyir. Həmçinin Cənubi Qafqazda ABŞ ənənəvi xaos yaratmaq siyasətini yürütmək istəyir. Amma həm Azərbaycan, həm müttəfiq Türkiyə, həm də region ölkələri olan Rusiya və İran əllərindən gələni edəcəklər ki, demokratların bu planı gerçəkləşməsin. Şübhəsiz, belə də olacaq. Çünki vaxt darlığı var. Bayden və onun ətrafının başı gələn ildən daxili siyasətə – seçkilərə qarışacaq. Dünyada baş verən proseslərdə ABŞ-ın rolu 1,5-2 il müddətinə zəifləyəcək. Bunu nəzərə alan demokratlar indidən müxtəlif strateji regionlarda elə xaos yaratmaq istəyirlər ki, qarşıdakı iki ildə başqa oyunçular həmin regionlarda söz sahibi ola bilməsinlər, hansısa yeni layihələr irəli sürülməsin. Yalnız iki ildən sonra ABŞ-da kim prezident seçiləcəksə, o zaman yenə də Vaşinqton strateji regionlarda hegemon rolunu oynasın. Amma bu plan alınmayacaq. Azərbaycan və onun müttəfiqləri sabitliyin elə bir formatını yaradacaqlar ki, onun nəticəsində burada kənar müdaxilələr uğursuz olacaq.

Heydər Əliyevin dərsləri bizi diqqətli və daha məsuliyyətli olmağa səfərbər edirdi

Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibə.

IV SÖHBƏT

− Hidayət müəllim, ötən söhbətimizdə Heydər Əliyevin Rusiya ilə münasibətləri yaxşılaşdırmasından və bununla şimal qapılarımızın təhlükəsizliyinin təmin olunmasından söhbət açdınız. Amma həmin illərdə Rusiya yenidən öz silahlı qüvvələrini Azərbaycana yerləşdirmək üçün Bakıya ciddi təzyiq göstərirdi. Heydər Əliyev buna necə reaksiya verirdi?

− Çox maraqlı və vacib bir məsələyə toxundunuz. Çünki bu mövzu indi çox az-az gündəmə gəlir, amma çox mühüm bir məsələdir. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra da Rusiya uzun müddət öz iddialarından əl çəkmirdi və bütün vasitələrlə çalışırdı ki, heç olmasa sərhədlərin qorunması adı ilə öz hərbi hissələrini yenidən Azərbaycana yerləşdirsin. Heydər Əliyevin tarixi zəfəri onda oldu ki, buna imkan vermədi. Mən ilk günlərdən bu işlərin içində olmuşam və bilirəm ki, Rusiyanın o zamankı hakimiyyəti Heydər Əliyevə bununla bağlı hansı təzyiqləri göstərirdi. Elə mən deyərdim ki, Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi dövlət səfərinin 1997-ci ilə qədər uzanmasının əsas səbəblərdən biri məhz bu idi...

Etiraf etmək lazımdır ki, Xalq Cəbhəsinin Azərbaycan qarşısında yeganə xidməti Sovet – Rusiya ordu hissələrinin Azərbaycandan çıxarılması idi. Amma o da tarixin qızıl faktıdır ki, 1992-ci ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Rusiyanın Zaqafqaziya Sərhəd Dairəsinin Naxçıvandakı hərbi hissələrinin komandanlığı ilə apardığı danışıqlar nəticəsində 75-ci motoatıcı diviziya ləğv edilmişdi. Diviziyanın bütün hərbi və təsərrüfat əmlakının Azərbaycana verilməsi haqqında razılıq əldə olundu. Muxtar Respublikanın rəhbəri danışıqlar zamanı Azərbaycanın artıq tam müstəqil dövlət olduğunu və dünya ölkələri tərəfindən tanındığını bəyan etdi. Heydər Əliyev qəti şəkildə bildirmişdi ki, Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ərazisində başqa dövlətin hərbi hissələrinin qalması artıq qeyri-mümkündür.

O zaman milli münasibətlər sahəsinə rəhbərlik etsəm də, bu məsələ də bilavasitə bu sahəyə ciddi şəkildə bağlı bir məsələ idi. Ona görə mən Rusiyanın bizimlə sərhəd olan regionuna, xüsusilə Dağıstana tez-tez səfər edirdim. Hətta Dağıstan–Azərbaycan münasibətlərinin yaxınlaşdırılmasındakı xidmətlərimə görə Məhəmmədəli Məhəmmədov məni Dağıstan Respublikasının fəxri fərmanı ilə təltif etmişdi. Prezident Heydər Əliyevin qarşıma qoyduğu tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar o qədər Gürcüstana səfərə gedib-gəlmişdim ki, Prezident Eduard Şevardnadzenin sərəncamı ilə Gürcüstan Respublikasının "Ləyaqət" ordeni ilə təltif olundum. Bu, Gürcüstanın ən yüksək mükafatlarından sayılır. Amma mən bütün bu mükafatları ulu öndər Heydər Əliyevin xidmətləri hesab edirəm. Çünki bütün bu respublikalarla bağlı həyata keçirilən siyasət Heydər Əliyevin zəkasının, siyasi düşüncəsinin, alternativi olmayan siyasətinin məhsulu idi, mən sadəcə onun göstərişlərini, tapşırıqlarını icra edirdim.

Rusiyanın o zamankı rəhbərliyi, xüsusi xidmət orqanları, Sərhəd Xidmətinin rəhbərliyi, ümumən Rusiyanın siyasi istəblişmenti təkid edirdilər ki, Rusiya sərhədçiləri Azərbaycanın sərhədlərinin qorunmasında iştirak etməlidirlər. 1997-ci ildə Ulu öndərin Rusiya Federasiyasına ilk səfəri oldu. Həmin səfər zamanı da Rusiya rəsmiləri bu məsələni yenidən qaldırdılar. Amma Heydər Əliyev buna çox sərt və birmənalı cavab verdi.

Bir dəfə də Prezident Heydər Əliyevin tapşırığı ilə Dağıstanın cənubunda Məhərrəmkənd rayonuna mənim başçılığım altında nümayəndə heyəti getdi və orada Rusiya Federal Əks-Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Stepaşinlə, Rusiyanın, Dağıstanın yüksək vəzifəli şəxslərilə görüşdüm. Bizim nümayəndə heyətinə Sərhəd Qoşunlarının komandanı Abbaseli Novruzov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və hüquq-mühafizə orqanlarının rəhbərlərindən bir neçə nəfər daxil idi. O zaman Stepaşin Rusiya Federasiyasında birinci çeçen müharibəsi dövründə qanunsuz çeçen silahlı dəstələrinin tərksilah edilməsi əməliyyatını həyata keçirən qurumun rəhbərlərindən biri idi. Onların bəhanəsi bu idi ki, guya, dünyanın bəzi ölkələrindən gəlib çeçen qanunsuz silahlı dəstələrinə qoşulanlar Azərbaycan ərazisindən tranzit kimi istifadə edirlər. Hətta buradan, guya, silah daşınır.

Biz səfərə gedəndən bir gün əvvəl orada bir təxribat törədilmişdi. Dağıstan Şurasının üzvü, Dərbəndin başçısı Səid Qurbanovu girov götürmüşdülər. Biz Bakıdan çıxıb birbaşa ora yola düşdük. Şəhərə çatanda dedilər ki, Səid Qurbanovu azad ediblər. Onunla görüşəndən sonra təhlükəsizlik baxımından məsləhət oldu ki, biz Qusara qayıdıb ordan Məhərrəmkəndə görüşə gedək. Rəsmi görüş vaxtına 4 saat qalırdı...

Məhərrəmkənddə keçirilən görüşdə Stepaşin sərhəd məsələsini yenə qaldırdı və bildirdi ki, əgər biz sizin Sərhəd Xidməti ilə sərhədləri qorusaq, sizin də, bizim ölkənin də təhlükəsizliyini möhkəmləndirmiş olarıq və heç bir terrorçu ərazilərimizə sıza bilməz. Doğrusu, bunların belə inadkarcasına təkidindən daxilən qəzəbləndim və bir az əsəbi tonda dedim: "Axı bu məsələ Rusiya Federasiyası tərəfindən hər iki ölkənin rəsmi nümayəndələri, hətta ölkə prezidentləri səviyyəsində keçirilən görüşlərdə bir neçə dəfə qaldırılıb və dövlət rəhbəri, bizim nümayəndələr Rusiya tərəfinə bununla bağlı açıq, dəqiq və aydın cavab veriblər. İndi görüşdə bu məsələni qaldırmağın heç bir mənası yoxdur".

Sonra görüşdə iştirak edən hüquq-mühafizə orqanlarının rəhbərlərindən biri mənə dedi: "Hidayət müəllim, çox sərt cavab verdiniz..." Dedim: "Vəziyyət belə tələb edirdi. İkincisi də Prezident belə tapşırıq verib, bu da mənim ürəyimdən olan mövqe olduğu üçün arxayınca belə sərt cavab verdim. Biz rus ordusunu 200 ildən sonra güclə Azərbaycandan çıxarmışıq, indi yenə gəlsinlər?" Mənim bildiyim qədər, Məhərrəmkənd görüşündən sonra bu məsələ bir də qaldırılmadı. Hər halda, mənim bu haqda məlumatım olmadı...

Çox keçmədi ki, Stepaşin Şamil Basayevin silahlı dəstəsinin Stavropolun Budyonnovski rayon mərkəzində törətdiyi terror aktından sonra özünü günahkar hesab edib istefa verdi. Buna baxmayaraq, sonralar o, Rusiyada, hətta baş nazir də oldu, onunla bir çox görüşlərimiz oldu.

Amma sərhədlərin qorunması ilə bağlı Rusiyanın iddiasına Prezident Heydər Əliyevin 1997-ci il iyunun 2-dən 4-ə qədər Rusiya Federasiyasına ilk rəsmi səfəri zamanı imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə ilə nöqtə qoyuldu. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində nəinki Rusiyanın, ümumiyyətlə, hər hansı digər dövlətin silahlı qüvvələrinin Azərbaycana yerləşdirilməsi müzakirə mövzusu olmadı.

− Heydər Əliyevin hakimiyyətə qayıdışından əvvəl ölkədə dini məsələlər çox xaotik vəziyyətdə idi. Ulu öndər ölkəni yeni daxili qarşıdurmaya sürükləyə biləcək bu vəziyyətdən çıxarmaq üçün hansı tədbirləri gördü, konkret bu sahəyə nəzarət edən bir vəzifə adamı olaraq, sizin qarşınıza hansı vəzifələr və tapşırıqlar qoyurdu?

− Çox doğru qeyd edirsiniz ki, 1992–1993-cü illərdə, hətta mən deyərdim, ondan bir az sonra da dini sahədə, həqiqətən, xaotik bir vəziyyət yaranmışdı və qorxulu, təhlükəli tendensiyalar sürətlə inkişaf etməkdə idi. Ölkəni artıq bu yolla fəlakətə sürükləməyə çalışmaqda maraqlı olan qüvvələr, xarici ölkələr var idi. Hətta deyərdim, din ölkədəki siyasi vəziyyətdən daha dağıdıcı bir faktora çevrilməkdə idi.

Bu da səbəbsiz deyildi. 1992-ci ildə regionda, ölkədə gedən prosesləri, tarixi şəraiti öyrənmədən, tələsik "Dini etiqad azadlığı haqqında Qanun" hazırlanmışdı və parlament onu qəbul etmişdi. Lakin bu, nəinki dini sahədəki xaosu aradan qaldırdı, əksinə, xarici vətəndaşlar, müxtəlif missioner təşkilatlar bu qanundakı boşluqlardan istifadə edərək öz niyyətlərini həyata keçirməyə başladılar. Ölkədə dini sahədə ağıla gəlməyən hadisələr baş verirdi. İş o yerə çatmışdı ki, bəzi üzdəniraq adamlar özlərini peyğəmbər elan edir, insanları öz arxasınca aparmağa çalışırdılar. Qeyri-ənənəvi təriqətlərin nümayəndələri Azərbaycana ayaq açmışdılar və öz saxta inanclarını burada yaymağa, tərəfdarlar toplamağa çalışırdılar. Bunlar ərəb ölkələrindən, İrandan, elə qardaş Türkiyədən də axışıb gəlir və burada öz dayaqlarını yaratmağa başlayırdılar.

Qonşu İrandan gələn missionerlər Bakıda, Azərbaycanın ayrı-ayrı yerlərində sünni–şiə qarşıdurması yaratmağa cəhdlər edirdilər. Məsələn, mən Dini İşlər üzrə Dövlət Komitəsində işə başlayanda məlumat almışdım ki, Azərbaycanda 1500-ə yaxın adam İranın müvafiq strukturlarından maaş alır. "Maaşı" da bir cür adlandırırdılar. Hə, yadıma düşdü, "şəhriyyə". Hər adambaşına 150 manatdan tutmuş 1500 manata qədər pul verirmişlər.

Baxın, axı, Azərbaycan dünyada bəlkə də yeganə ölkədir ki, heç zaman dini qarşıdurma baş verməyib və burada yaşayanlar dinindən, etiqadından, təriqətindən, milliyyətindən asılı olmayaraq, daim dinc-yanaşı yaşamış və bir-birinə hörmətlə yanaşmışlar. Bu, Azərbaycanın ən üstün dəyərlərindən biridir. Amma bunu məhv etməyə, qarşıdurma yaratmağa çalışırdılar.

Bütün bunları mən yaxşı bilirəm, çünki 20 il milli siyasət məsələləri üzrə dövlət müşaviri, Dövlət Komitəsinin sədri vəzifələrində çalışanda bu problemləri araşdırır, onların həlli ilə bilavasitə məşğul olurdum.

Ulu öndərin dinə münasibəti birmənalı idi. Əvvəla, Heydər Əliyev özünü İslam hümməti, müsəlman sayır və bununla fəxr edirdi. Dini-islami dəyərlərə çox böyük ehtiramla yanaşır və hörmət edirdi. Amma hamı belə deyildi. Məsələn, o zaman Prezident Aparatında yüksək vəzifə tutan adam var idi ki, onun qardaşı doğmaları və sair yaxınları xristianlığı qəbul etmişdilər. Yaxşı yadımdadır, toplantıların birində Prezident Heydər Əliyev ad çəkməsə də, bir çoxlarımızın yaxşı tanıdığı belə adamlara kəskin münasibət bildirdi və dedi: "Adam öz dinini, inancını, adət-ənənəsini necə dəyişə bilər?"

Heydər Əliyev bu sahədə xüsusi təcrübəsi olan müdrik və uzaqgörən bir dövlət rəhbəri idi və ölkədəki dini münasibətlərdə mövcud problemlərin qarşısını almaq üçün insanlarla birgə özü bir çox dini mərasimlərdə, tədbirlərdə iştirak edirdi. Bu, təkcə onun inancından, dini etiqadından irəli gəlmirdi, Ulu öndər həm də həmin tədbirlərdə iştirak edən insanlara dövlətin rəsmi mövqeyini, din-dövlət münasibətlərinin hansı prinsiplərə söykəndiyini çatdırır, onların dövlətin adıçəkilən sahədəki siyasətinin nədən ibarət olduğunu dərk etmələrinə çalışırdı.

Məsələn, Heydər Əliyev hakimiyyətə qayıdışının elə ilk vaxtlarında iştirak etdiyi dini tədbirlərin birində özünün və dövlətin mövqeyini qısa və yığcam şəkildə belə ifadə etdi: "Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir". Bu, artıq insanları dini ədavət yoluna istiqamətləndirməyə cəhd göstərən adamlara aydın mesaj idi. Çox keçmədi ki, Prezidentin təklifi ilə "Dini etiqad azadlığı haqqında" Qanununa ciddi dəyişikliklər edildi, bəzi maddələr ləğv olundu, müəyyən əlavələr edildi.

Həmin illərdə biz də dini konfessiyalarla çox sıx şəkildə işləyir, bu sferada cərəyan edən hadisələrə onların münasibətini öyrənir, eyni zamanda, müvafiq orqanlardan dini ekstremizmi yayan təşkilatlar haqqında müfəssəl məlumatlar alır və təbliğat-təşkilat işləri həyata keçirirdik. Məsələn, 1998-ci il oktyabrın 1 və 2-də Bakıda "Müasirlik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfrans keçirdik. Heydər Əliyev həmin konfransda tarixi nitq söylədi və dedi: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". Bu bəyanat bütün dünyaya yayıldı və zamanla onun həqiqət olduğu çoxlarına aydın oldu.

Təbii ki, başqa işlər də görülürdü və Prezidentin tapşırığı ilə həyata keçirdiyimiz bütün tədbirlərin nəticələri, gördüyümüz işlər haqqında Ulu öndərə məruzə edir, ümumi vəziyyət barədə fikirlərimi çatdırırdım. Bir müddət sonra Prezident Heydər Əliyev Azərbaycanda fəaliyyətdə olan bütün dini qurumlara maliyyə yardımı göstərmək haqqında sərəncam imzaladı. Dini abidələrin bərpası və təmiri ilə bağlı sərəncamlar imzaladı. Prezident göstərdi ki, Azərbaycan müsəlman dövləti olsa da, Qafqaz Müsəlmanları İdarəsi ilə yanaşı, ölkəmizdəki pravoslav, yəhudi, katolik və başqa dini icmalara da qayğı ilə yanaşır, çünki ölkədə həmin dinlərə etiqad göstərən Azərbaycan vətəndaşları var.

− Yeri gəlmişkən, Alban dini icmasının Azərbaycanda müstəqil fəaliyyəti necə təmin edildi? Səhv etmirəmsə, bu dini icma uzun illər qriqoryan kilsəsinin tərkibində idi...

− Elə söhbətimi o yerə gətirəcəkdim ki, məhz ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin simasında Azərbaycan dövlətinin dinlərə, konfessiyalara münasibəti Azərbaycandakı Alban dini icmasının müstəqil fəaliyyəti üçün bir zəmin oldu. Apardığımız təbliğat və təşviqat işləri nəticəsində Alban dini icması Qriqoryan dini icmasından tamamilə ayrıldı və müstəqil dini icma kimi fəaliyyətə başladı.

Əslində, bu çox ciddi və ağır bir məsələ idi. Çünki Qriqoryan kilsəsinin sahibləri Alban icmasını özünün bir qolu hesab edirdi. İctimaiyyətdə də belə bir fikir formalaşmışdı. Hətta Azərbaycanın Oğuz, Qəbələ bölgələrində yaşayan və alban dininə etiqad göstərən insanların bəziləri erməni separatizmi başlayanda Azərbaycanı tərk etmişdilər. Sonra vəziyyət normal ahəngə düşəndən, Azərbaycan dövlətinin albanlara münasibəti bəlli olandan onların əksər hissəsi geri qayıtdı.

Onu da deyim ki, Alban icması da tarixi ədalətsizlik səbəbindən Qriqoryan icmasına verilib. O zaman Alban kilsələrinin Qriqoryan kilsələrinə verilməsi haqqında Senatın qərarı olmayıb. Bu barədə yalnız dövlət razılaşması olub. Əlbəttə, Ulu öndər bu sahədə olan ədalətsizliyin aradan qaldırılması üçün təşəbbüs göstərdi və Alban icması müstəqil fəaliyyətə başladı. Bizim dövlət müşavirliyi də Heydər Əliyevin verdiyi tapşırıqlar əsasında bu sahədə çox işlər gördü.

Ayrılandan sonra ölkəmizdə yaşayan albanlar ayıldılar və başa düşdülər ki, bunların özünəməxsus dini ayinləri var, dinləri tam fərqlidir. Əlbəttə tarix belə idi. Ermənilər Qərbi Azərbaycana köçürülməmişdən çox-çox əvvəl Qafqaz Albaniyası mövcud olmuşdur, tarixləri çox qədim dövrlərə gedib çıxır, milli tərkibləri və dinləri də tam fərqlidir.

Məhz Heydər Əliyevin dini istiqamətdə müəyyənləşdirdiyi siyasi kurs bəlli olandan sonra respublikanın hüquq-mühafizə, inzibati orqanları, icra strukturları bu sahəyə daha diqqətlə yanaşmağa başladılar. Artıq 1990-cı illərin sonlarında Azərbaycanda dini münasibətlər təsəvvürolunmaz dərəcədə yaxşılaşdı.

Heç unutmaram, 1999-cu il noyabrın 16-da Prezident Heydər Əliyev ölkəmizdəki dini konfessiyaların başçılarını qəbul etdi. Mənim də iştirak etdiyim qəbulda Ulu öndər çox müdrikcəsinə dedi: "Məmnunam ki, ölkəmizdə, müstəqil Azərbaycanda müxtəlif millətlərə mənsub olan insanlar Azərbaycanın vətəndaşları olaraq sülh və əmin-amanlıq şəraitində yaşayır, bir-birinə hörmət bəsləyirlər. Bir dinin nümayəndələrinin digərinə, bir konfessiyanın başqasına hörmətsiz münasibət bəsləməsinə dair heç bir fakt yoxdur. Cəmiyyətlərimizdə çox mürəkkəb proseslərin getdiyi bir şəraitdə, Azərbaycanın Ermənistanla artıq 12 il müharibə vəziyyətində olduğu, 1988-ci ildə Dağlıq Qarabağ üstündə başlanmış münaqişənin respublikada sosial, siyasi vəziyyəti, o cümlədən, dini vəziyyəti son dərəcə mürəkkəbləşdirdiyi bir şəraitdə bunu ölkəmizin çox mühüm nailiyyəti hesab edirəm ". Çox maraqlıdır ki, həmin görüşdə Ulu öndər çox yığcam və konkret olaraq dünyada gedən proseslərə, islamofobiya ilə bağlı da münasibətini açıqlayaraq bildirdi ki, "son vaxtlar dünyanın müxtəlif regionlarında müsəlmanları ekstremist, təmənnasız, tolerantlıq prinsiplərini tapdalayan insanlar kimi göstərməyə cəhdlər edilir. Bunu bəzi xristian ölkələrində edirlər. Amma bu, ədalətsizlikdir.

Şübhəsiz ki, hər bir xalqın içərisində, hər bir ölkədə quldurlar, terrorçular, cinayətkarlar, ekstremistlər var. Ancaq bunun xalqların dini kökləri, yaxud onların dini prinsipləri ilə heç bir əlaqəsi yoxdur".

Bu fikirləri eşidəndə əsl həqiqətdə Prezidentimizə heyran oldum ki, o belə bir görüşdə başqa dini konfessiyaların rəhbərlərinə əsl İslamın terrorizmlə heç bir əlaqəsinin olmadığı dərsini keçdi.

Yeri gəlmişkən, bu görüşdən 3 il əvvəl tolerantlıq günü ilə bağlı Prezident Heydər Əliyev mənə çox incə şəkildə unutqanlığımı, məlumatsızlığımı bildirməsini də sizə danışım. Bir gün Heydər Əliyevin köməkçisi mənə telefon açdı ki, Prezident sizi dəvət edir. Təbii qovluğumu, qeyd dəftərçəmi də götürüb qəbula getdim. Amma özlüyümdə ayırd edə bilmirdim ki, nə üçün məni dəvət edib.

Dedi: "Hidayət, yəqin bilirsən, Birləşmiş Millətlər Təşkilatının qurumu olan UNESCO 1995-ci ildə özünün qərarı ilə noyabrın 16-sı dünyada dözümlülük günü, sabitlik, tolerantlıq günü elan etmişdir. Bu günlə bağlı bir tədbir təşkil edin". Açığını deyim ki, bilmirdim və

buna görə çox pərt oldum. Özüm-özümə dedim: " Axı, bunu mən bilməliydim və Prezidentə məruzə etməliydim". Ondan sonra hər il noyabrın 16-da çox böyük tədbirlər, beynəlxalq dini elmi konfranslar keçirirdik. Yəni həmin hadisə artıq mənə dərs olmuşdu.

Sonra Prezident Heydər Əliyevin təşəbbüsü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Bu qurum haqqında ayrıca danışmaq lazımdır...

− Heydər Əliyevin dinə, xüsusilə, İslama münasibəti, bu sahədə gördüyü işlər müsəlman aləmində hansı reaksiya doğurdu? Heydər Əliyevə qədər İslam ölkələri, bir-iki dövlət istisna olmaqla, Azərbaycanı beynəlxalq aləmdə elə də ciddi dəstəkləmirdi. Ulu öndər bu münasibəti necə dəyişə bildi?

− Heydər Əliyevin müstəsna xidmətlərindən biri də İslam ölkələrini Azərbaycanla sıx şəkildə münasibətlər qurmağa, beynəlxalq platformalarda ölkəmizin haqq işini dəstəkləyən ölkələr sırasında yer almasına nail olmasıdır. Əvvəla, bütün İslam dünyası Heydər Əliyevi hələ sovet dönəmindən yaxşı tanıyırdı və SSRİ-nin rəhbərliyində yüksək vəzifə tutmasından qürur duyur və bunu dilə gətirməkdən çəkinmirdilər. Çünki Heydər Əliyev SSRİ Nazirlər Sovetinin Sədrinin birinci müavini kimi bir çox müsəlman ölkələrinə imkanları çərçivəsində diqqət göstərirdi.

İkinci, İslam ölkələri Azərbaycan dövlətinin başına belə bir rəhbərin gəlməsini çox yüksək qarşıladılar və ölkəmizlə çox rahatlıqla münasibətlər qurmağa, iqtisadiyyatımıza yatırımlar etməyə başladılar. Amma ona qədər, Xalq Cəbhəsinin hakimiyyəti dövründə Azərbaycana ciddi müstəqil dövlət kimi yanaşmırdılar. Hətta bəzi türk dövlətləri belə Azərbaycanla isti münasibətlər qurmaqda maraqlı deyildilər.

Açıq demək lazımdır ki, AXC hakimiyyəti dövründə siyasət ümumi türkçülük deyildi, siyasət türkiyəçilik idi. Heydər Əliyev bunu aşdı və genişləndirdi. Artıq Heydər Əliyevin vaxtında siyasət qardaş Türkiyə ilə yanaşı, həm də türkçülüyə çevrildi.

(ardı var)

İlqar RÜSTƏMOV,
Əməkdar jurnalist
XQ

Konqres guruldadı, amma yağa bilmədi...

Metyu Millerin açıqlaması və Vaşinqtonun Bakı – İrəvan əlaqələrinin nizamlanmasına qayıtmaq cəhdi

(əvvəli 1-ci səhifədə)

Beləliklə, C.O'Brayn ABŞ Konqresinin Nümayəndələr Palatasında konqresmenlərin suallarını, o cümlədən, ermənipərəst konqresmenlərin təxribat dolu mülahizələrini cavablandırarkən, necə deyərlər, duza getmişdi. O, Vaşinqtonun Cənubi Qafqaz siyasəti müstəvisində xoşagəlməz ton seçmiş, özünü Amerika filmlərindəki "kovboylar" kimi aparmış, Ermənistanı Birləşmiş Ştatlar üçün, bir növ, əlahiddə statuslu dövlət qismində təqdim etməklə, belə təəssürat yaratmışdı ki, sanki Ağ Ev bölgədə sülh dedikdə, birbaşa İrəvanın dəstəklənməsini əsas götürür.

Mövcud xüsusda üzərində dayanılmalı ikinci məqam O'Braynın Azərbaycanın daxili işlərinə qarışması idi. Departament rəsmisi bildirmişdi ki, ölkəmizin qərb rayonlarını Naxçıvanla birləşdirən yol mütləq şəkildə Ermənistan ərazisindən keçməli və bu zaman İrəvanın təhlükəsizlik təminatları əsas götürülməlidir. Ən əsası isə o, Bakının Ermənistanın şərtləri qəbul etməyəcəyi təqdirdə, sözügedən yolun İran ərazisindən keçməsi təşəbbüsünə qarşı çıxmış,

bu, azmış kimi, sətiraltı şəkildə ölkəmizə hədə-qorxu gəlmiş, Azərbaycanın qarşıdakı iki həftə müddətində düşünməli və mövqeyini müəyyənləşdirməli olduğunu vurğulamışdı. Əlbəttə, cənab Ceymsin belə yanaşmasına münasibət özünü nəinki iki həftə, heç iki saat da gözlətməmişdi. Azərbaycanın Xarici İşlər Nazirliyi geniş bəyanat yayaraq, departament rəsmisinin mövqeyini sərt tənqid etmiş və onun söylədiklərini Bakının daxili siyasətinə qarışmaq cəhdi kimi qiymətləndirmişdi.

Bəli, M.Millerin dünən ənənəvi olaraq keçirdiyi brifinqdəki açıqlaması onu göstərir ki, ABŞ "O'Braynsayağı məntiq"dən geri durur. Əgər ikinci fikirləri ilə Birləşmiş Ştatları tərəfə çevirib onu Azərbaycan–Ermənistan münasibətlərinin nizamlanmasından qoparırdısa, birinci ölkəsini, belə demək mümkünsə, məhvərinə qaytarmaq yolunu tutur. Millerin söylədiklərini, ilk növbədə, məhz bu cür qiymətləndirməyin lazım olduğu düşüncəsindəyik.

Əlbəttə, ABŞ Dövlət Departamentinin sözçüsünün bildirdiklərini son günlərin Bakı–Vaşinqton gərginliyinin aradan qaldırılmasına yönələn davranış kimi mütləqləşdirməyin tərəfdarı deyilik. Nəzərə alaq ki, Birləşmiş Ştatların 1992-ci ildə Azadlığa Dəstək Aktına qəbul edilmiş 907-ci düzəliş mövzusunda Azərbaycana təzyiq xüsusundakı ritorikasından əl çəkdiyini söyləmək hələlik mümkünsüzdür. Onu da nəzərə alaq ki, 907-ci düzəliş Birləşmiş Ştatların ölkəmizə dövlət yardımını qadağan edən məsələdir və hazırda ölkə Senatının qəbul etdiyi qanun layihəsi ABŞ Prezidentinin sözügedən məsələnin icrasını dayandırmaq səlahiyyətinə xitam verilməsi deməkdir. Əlbəttə, sözügedən layihə əvvəlcə Konqresin Nümayəndələr Palatasında təsdiqlənməli, daha sonra onu dövlət başçısının özü imzalamalıdır ki, qüvvəyə minsin...

Bəli, M.Millerin Azərbaycan–Ermənistan münasibətləri müstəvisində dilə gətirdikləri özlüyündə Bakı ilə Vaşinqton arasındakı gərginliyi yumşaltmaq baxımından mühüm məqamdır. Departament sözçüsü bildirir ki, Vaşinqton iki ölkənin rəhbərliyini sülhə təşviq siyasətini davam etdirir və hamının hüquqlarına riayət olunduğu güclü və davamlı sülh üçün İrəvan-Bakı təmaslarını asanlaşdırmağa hazırdır. Görünür, Birləşmiş Ştatlar O'Braynın söylədiklərinin durumu mürəkkəbləşdirdiyinin fərqindədir.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev, o cümlədən, dövlətimizin rəsmiləri dəfələrlə ölkəmizlə Ermənistan arasında birbaşa danışıqların başlanmasının vacibliyi üzərində dayanıblar. Ancaq İrəvan həmişə bundan boyun qaçırıb və onun dəst-xətti özünü müxtəlif miqyaslı anti-Azərbaycan davranışlarında göstərib. Ermənistan hakimiyyəti bu gün də tutduğu yola "sadiqdir". M.Miller isə bildirir ki, iki Cənubi Qafqaz ölkəsinin rəhbərliyinin birbaşa müzakirələrə başlaması, məsələləri regionun maraqlarına uyğun həll etməsi vacibdir və Birləşmiş Ştatlar bu danışıqlarda yardımçı rolunu öz üzərinə götürməyə hazırdır.

Deməli, düşünmək olar ki, ABŞ Azərbaycanın irəli sürdüyü müzakirə platformasını məqbul sayır. Digər yandan isə ölkə regionun maraqları prizmasından çıxış edir. Vaşinqtonun bu məntiqinin konkret nədən ibarət olduğunu söyləmək çətin olsa da, Birləşmiş Ştatlar tərəfindən indiyədək sırf belə bir deyimin gündəmə gətirilmədiyini söyləmək mümkündür. Deməli, Ağ Ev Cənubi Qafqaz müstəvisindəki siyasətini mövcud siyasi akvatoriyadakı maraqlı qütblərin yanaşmasına əsaslanaraq qurmağa üstünlük verəcək. Əlbəttə, demək olmaz ki, bu müstəvidə erməni maraqları tam şəkildə kənara qoyulacaq. Amma ehtimal edilə bilər ki, həmin maraqların müdafiəsində O'Braynın maksimalizmindən kənar dayanmağa keçid alınacaq. Müvafiq surətdə, Ermənistan amilinin, daha doğrusu, erməni iddialarının mütləqliyi məntiqindən uzaq durulacaq.

***

Bir vacib məqamı da vurğulayaq ki, dünyanın super gücü olan ABŞ məqsəd və mənafelərindən heç də asanlıqla geri çəkilən deyil. Məsələyə mövcud kontekstdən yanaşsaq, O'Braynın bildirdiklərini, eləcə də digər anti-Azərbaycan təsiri bağışlayan fikirləri nəbz yoxlamaq cəhdi qismində qiymətləndirmək də mümkündür. Çox güman, Birləşmiş Ştatlar bir anlıq maskasını Ermənistan naminə çıxarmağa qərar verdi və onun üçün nələrisə etmək əzminin xırda elementini nümayişə çıxardı. Şübhəsiz, əvvəldən Azərbaycanın əks-reaksiyasını hesablamamış deyildi. Eləcə də regionun digər dövlətlərinin münasibətini. Tam mümkündür ki, ABŞ Administrasiyası məhz bu reaksiyaları Ermənistana göstərmək istəyib. O da mümkündür ki, belə bir göstəriş İrəvan üçün nələrisə etməyə cəhdin sübutudur. Əlbəttə, Vaşinqton Paşinyan administrasiyasına gördüyü işin səmərə vermədiyini də anlatdı və özünün missiyasını bitmiş hesab edərək, yenidən əvvəlki kursuna qayıtdı. Yəqin, elə ona görə M.Miller bildirir: "Biz gördük ki, digər ölkələr də bu danışıqlarda yardım təklif edirlər. Hesab edirik ki, uzunmüddətli razılaşma üçün iki ölkənin üzbəüz danışıqlar aparması vacibdir".

***

Onu da vurğulayaq ki, M.Millerin açıqlaması Ermənistanda məsxərə predmetinə çevrilib. Erməni siyasilər buna qarşılıq Azərbaycan XİN bir qədər əvvəl haqqında söz açdığımız bəyanatının sərt məntiqini qabardırlar. Onlar məhz bu məntiqə əsaslanaraq bildirirlər ki, guya, Bakı birbaşa danışıqlara getməyəcək, ABŞ-ın missiyası səmərəsizdir. Erməni siyasilərin Vaşinqtona yönəlik ittihamına təxminən belə bir sual da hakimdir: yağa bilməyəcəkdinsə, niyə guruldayırdın?

Sonda Azərbaycan–Ermənistan münasibətləri kontekstində baş verənlərə sırf ölkəmizin maraqları mövqeyindən yanaşaq. Ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etmişik. Bakı üçün həll ediləcək məsələ, demək olar ki, yoxdur. Ona görə də prinsip etibarilə danışıqlarda və sülhdə maraqlı tərəf ölkəmiz yox, qarşı tərəf, yəni bilavasitə Ermənistan olmalıdır. İrəvanın bunu dərk etməsi isə sülh müqaviləsi bağlanmadan hansı mənfi nəticələr doğurduğunu görməsi mümkün deyil. Yəni, ilan ulduz görməlidir ki, ölsün.

Məsələyə mövcud prizmadan yanaşsaq, Qərb dünyası, gərək, növbətçi bəyanatlardan uzaqlaşsın, Ermənistanı şıltaqlaşdıran, ərköyün uşağa çevirən himayəçilik məntiqindən üz döndərsin. O cümlədən, onu silahlandırmaqdan da. Hesab edirik ki, məhz bu amil Paşinyanın və komandasının sülh masasında özünü konstruktiv aparmasına, reallıqları qəbul etməsinə şərait yaradacaq.

Ə.CAHANGİROĞLU
XQ

Bakıdan "avrotəlimlərə" STOP!

Avropa İttifaqının Azərbaycanda "rəsmi təlimləri"nin bir çoxu dayandırılıb

(əvvəli 1-ci səhifədə)

Onların bütün bu fəaliyyəti ölkəmizdə fəal vətəndaş cəmiyyətinin inkişafına töhfə verilməsi və nəticədə, Azərbaycan vətəndaşları üçün daha yaxşı həyat imkanları yaradılmasına dəstək məqsədi daşıyır. İlk baxışda məqsəd və niyyəti qətiyyən şübhə doğurmayan bu layihələrdə diqqəti çəkən əsas məqam təlimlərin Avropanın hansı ölkələrinin təmsilçiləri tərəfindən yerinə yetirilməsidir. Maraqlıdır ki, belə layihələrin böyük əksəriyyətinin avanqardı rolunda Litva çıxış edir. Söhbət Avropa İttifaqında Fransadan sonra açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirən və anti-Azərbaycan fəaliyyəti ilə seçilən bir dövlətdən gedir.

Beləliklə, rəsmi Bakı yerli hüquq-mühafizə orqanları, səhiyyə və sosial təminat sahələrində Litvanın icra etdiyi üç birgə layihəni dayandırıb. Etibarlı mənbələrdən alınan məlumata əsasən, bir çox hallarda litvalı məmurların Azərbaycanda dövlət idarəetməsinin aparıcı sahələrində hədsiz fəallığı və maraqlılığı normal əməkdaşlığın hüdudlarını aşır rində möhkəm dayanmış respublikaya çevrildi. Məhz bu kontekstdən yanaşanda hazırda Avropa İttifaqı ilə "müəllim–şagird" münasibətləri Bakıdan ötrü bir o qədər də prioritet sayılmaya bilər. Bu zaman onu da qeyd etməyi vacib sayırıq ki, Fransanın dominantlıq etdiyi Aİ-nin Xarici siyasət komitəsinin rəhbəri, erməni separatizminin "alovlu təbliğatçısı" sayılan Cozef Borrelin son vaxtlar Azərbaycanın ünvanına "xəbərdarlıq" və "birmənalı siqnalları" fonunda bu xarakterli əməkdaşlıq qətiyyən arzuedilən deyil.

Ekspert rəyi

Rasim MUSABƏYOV,
Milli Məclisin deputatı, politoloq

Əslində, həmin "Twinning" proqramlarında avropalı emissarlar Azərbaycan dövlətinə qarşı hansısa fəaliyyət göstərmək iqtidarında deyillər və bunu edə bilməzlər. Sadəcə olaraq, onlar Avropada qəbul olunmuş qaydaları təqdim, təklif və şərh etməklə məşğuldurlar. Burada irəli sürülən təkliflərin Azərbaycan tərəfindən mütləq şəkildə qəbul edilməsi məsələsi də yoxdur. Əgər biz Avropaya neftdən başqa hansısa digər məhsul və mallarımızı satmaq, bu prosesə avropalı investorların cəlb olunmasını istəyiriksə bu halda yerli qaydalarımızı "köhnə qitə"də mövcud standartlara uyğunlaşdırmalıyıq. Bu zaman sərbəst şəkildə bəyəndiyimiz norma və qaydaları tətbiq edir, bəyənmədiyimizdən yan keçirik.

Əgər layihənin icraçısı kimi Litvadan xoşumuz gəlmirsə, macarları seçə bilərik. Bəli, mövqeyi bizə yaxın ölkələrin həmin proqramlarda iştirakını arzu etməyimiz təbiidir. Maliyəni Avropa İtifaqı verir, icraçılar da tender əsasında müəyyən edilirlər. Əlbəttə ki, qərar qəbul olunan zaman Aİ Azərbaycanın da rəyini nəzərə almalıdır. Nəzərə almayacaqları təqdirdə, aydın məsələdir ki, Bakı o layihələrdən imtina edəcək.

və müəyyən şübhələr yaradırdı. Müxtəlif nazirlik və idarələrdə təşkil olunan metodiki təlimləri az qala "müəllim–şagird" üslubunda aparmağa meyl göstərən məhz bu ölkələrin avro-çinovniklərinin yerli məmurlara, dövlət qulluqçularına yuxarıdan aşağı baxmaları da nəzərdən yayınmırdı. Həm də bu səbəblərə görə, miqrasiya sahəsində İsveç və Yunanıstanla "tvinninq–layihəyə" də son verilib. Xüsusilə birinci dövlətin Azərbaycana və Türkiyəyə münasibətdə son illər sərgilədiyi mövqeyini geniş şərh etməyə ehtiyac duymuruq.

* * *

Haqqında danışdığımız layihələr Azərbaycan üçün, çox güman ki, ötən əsrin 90-cı illərinin əvvəllərində böyük əhəmiyyət daşıyırdı. Çünki müstəqilliyinə yeni qovuşmuş respublikamız hər şeyi "sıfırdan" başlamaq məcburiyyətində idi. Amma ölkəmiz yeni əsrə, yeni minilliyə yeni dəyərlərlə qədəm qoydu. Xüsusilə 2003-cü ildən daha geniş inkişaf yoluna çıxan Azərbaycan qarşıya qoyduğu məqsədlərə doğru addım-addım, həm də inamla irəliləyirdi. 2020-ci ildən sonra isə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan Cənubi Qafqazda söz sahibinə, öz ayaqları üzə-

Azərbaycanın dövlət strukturlarının idarəetmədə inzibatçılığın keyfiyyətini daha da yaxşılaşdırmaq üçün xarici ölkələrlə təcrübə mübadiləsinə gəldikdə isə yadda saxlamaq lazımdır ki, Avropanın Azərbaycanla dost münasibətlərə malik ayrı-ayrı dövlətləri ilə ikitərəfli təmasları heç kim kənara qoymayıb. Bu kontekstdə Bakıdan ötrü Polşa və Finlandiya ilə oxşar layihələrin həyata keçirilməsi istisna hal sayılmalıdır. Çünki bu iki ölkə Azərbaycanla münasibətlərində sağlam, ədalətli və eyni zamanda, balanslaşdırılmış mövqe nümayiş etdirirlər. Onlar da Aİ üzvləridir. Üstəlik, Asiyanın yüksək texnologiyaya sahib bir sıra ölkələri özləri üçün Aİ ilə rəqəmsallaşma və inzibati islahatların effektivliyi baxımından uzunmüddətli və səmərəli əməkdaşlığı müəyyən ediblər. Yəni, burada rəsmi Bakının tərəfdaşları kifayət qədərdir. Fəqət belə görünür ki, daxili inzibatçılıq məsələlərində Aİ ilə institusional əməkdaşlığın məntiqi sonluğa yaxınlaşdığını söyləyə bilərik.

İ.HƏSƏNQALA
XQ

Azərbaycan "top"u Ermənistana qaytardı – təklif yox, birbaşa təmas!

Bakı İrəvanın sülh manipulyasiyalarını pozur

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, İrəvanın xarici siyasət üzrə baş idarəsinin Azərbaycana ünvanladığı yeni sülh təkliflərinin məzmununun konkret nədən ibarət olduğu açıqlanmır. Ancaq ümumən məlumdur ki, ölkəmizin sülh təkliflərinə alternativ nələrisə irəli sürmək və məsələni barışıq niyyəti kimi ictimailəşdirmək Ermənistan XİN-in həmişə istifadə etdiyi "taktiki gedişdir". Qurum yenə də eyni "ampluadadır". Sual olunur: Bir halda ki, Ermənistan əvvəllər elan edilmiş prinsiplər əsasında münasibətlərin nizamlanmasına dair sazişin imzalanmasına hazırdır, elə isə nəyə görə razılığını ifadə etmir, yenidən təkliflər göndərir? Elə bu sadə məntiq onu deməyə əsas verir ki, İrəvan, necə deyərlər, təklif oyunu oynayır. Əlbəttə, artıq bu oyuna yer yoxdur...

Qeyd edək ki, mövcud məqama Azərbaycanın Xarici işlər naziri C.Bayramov da bir müddət əvvəl toxunmuşdu. O bildirmişdi ki, İrəvan Bakıdan təklif alanda bunu ictimailəşdirmir, amma özü təklif göndərən kimi bu barədə dərhal cəmiyyətə məlumat verir. Beləliklə, bir növ, məsuliyyəti öz üzərindən atmaq yolu tutur və sanki topun Azərbaycanda olduğu təəssüratını yaradır. Halbuki, Bakı məsələyə işçi kontekstdə yanaşır, bu səbəbdən konkret səciyyə daşımayan məqamları ictimailəşdirməkdən uzaq dayanır. Ancaq bir qayda olaraq, Azərbaycanın təklifləri aylarla cavabsız qalır. Elə indi də cavabsız qalmışdı.

Yeri gəlmişkən, C.Bayramov hələ 2022-ci ilin martında Ermənistanın Azərbaycanın təkliflərinə etinasız yanaşdığını vurğulamışdı. O, həmin vaxt Anadolu Agentliyinə müsahibəsində demişdi ki, "Bir ilə yaxındır ki, Ermənistan tərəfindən bizim təklifimizə heç bir cavab verilmir. Azərbaycan tərəfi öz xoşməramlılığını göstərmək üçün bu yaxınlarda Ermənistana yeni təkliflə çıxış edib. Əgər Ermənistan artıq atəşkəs üzərində işləməyə hazır olmadığını düşünsə, təklif çox əhatəli sənəd ola bilər, çünki biz Ermənistan tərəfinə mahiyyətcə ölkələr arasında münasibətlərin normallaşdırılmasını özündə ehtiva edən bəzi əsas prinsipləri təklif etmişik". Deməli, vaxtilə Azərbaycan İrəvanın təkliflərə etinasız yanaşdığını görərək, yeni təkliflər irəli sürübmüş. Məlum olduğu kimi, ölkəmiz İrəvana hazırkı təklifləri bu ilin avqustunda ünvanlamışdı. Cavab isə yalnız indi gəlir. Əgər buna cavab demək doğrudursa.

Nəzərə alaq ki, ölkəmizin irəli sürdüyü təşəbbüsün üzərindən xeyli müddət keçib. Bu məqam Azərbaycan XİN-in Ermənistanın XİN-in təkliflərinə münasibət müstəvisində yaydığı açıqlamada da əksini tapıb. Açıqlamada bildirilib ki, "Ermənistanın Azərbaycanın sülh müqaviləsi layihəsi ilə bağlı təkliflərinə cavab verməsinin təqribən iki ay yarım çəkməsi prosesi ciddi şəkildə yubadıb".

Əlbəttə, iki ay yarımla indi eyni dövr deyil. Buna görə də Azərbaycan XİN vurğulayır ki, sülh danışıqlarındakı durğunluq regionda sabitliyə və firavanlığa töhfə vermir. Durğunluğu yaradan isə Ermənistandır. Ölkə bu yanaşmasından daşınmalıdır. Daşınmalı və daha konkret addımlar atmalıdır. Konkretlik isə özünü, ilk növbədə, səmimiyyətdə göstərməlidir. Ölkəmizin baş diplomatiya idarəsinin açıqlamasında vurğulandığı kimi, sülh müqaviləsinin mətninin razılaşdırılması tezləşdirilməlidir. Yəni, bundan sonra, loru dildə desək, Ermənistanın ötür-ötür oyunu keçməyəcək: "Azərbaycan sülh müqaviləsinin mümkün qədər tez tamamlanması üçün Ermənistanla ikitərəfli əsasda birbaşa danışıqlara hazırdır. Biz inanırıq ki, iki ölkə gələcək münasibətləri barədə qərarı birlikdə verməlidir".

Bəli, hazırda aktual olan məsələ, belə demək mümkünsə, təklif mübadiləsi yox, üzbəüz müzakirələrin aparılmasıdır. Müzakirələr isə hər hansı vasitəçilərsiz, birbaşa getməlidir. Yəni, Ermənistan özündə cəsarət tapmalıdır. Dəstəkçi qismində Fransa Prezidenti Emmanuel Makronu və ya qeyrisini göstərməməlidir.

Ümumən, Ermənistan XİN-in təklifləri müstəvisində Azərbaycan XİN-in yaydığı açıqlama onu təsdiqləyir ki, Bakı İrəvanla danışıqların yeni fazası üzərində dayanır. Bu fazada məkan anlayışı öz əhəmiyyətini itirir. Ən əsası isə məsuliyyət dəqiqləşir. Nəzərə alaq ki, zaman-zaman Paşinyan administrasiyasının manipulyasiyalarında məsuliyyəti öz üzərindən atmaq meyilləri də nəzərə çarpıb. Azərbaycan artıq bu variantın keçərsizliyini elan edir və mövcud xüsusda Ermənistana çağırış ünvanlayır: "Biz Ermənistan tərəfini yeni lüzumsuz yubatmalara yol verməməyə çağırır və danışıqların tezliklə başlanması üçün onların bu çağırışa müsbət cavab verəcəyinə ümid bəsləyirik".

Göründüyü kimi, Azərbaycan dövləti çox haqlı olaraq məsələni kateqorik qoyur. Əgər Ermənistan təkliflər verdiyini bildirərək, onlara cavab müstəvisində topun ölkəmizdə olduğu görüntüsünü formalaşdırmaq istəmişdisə, Azərbaycan XİN-in açıqlaması mahiyyətcə topu yenidən İrəvana qaytardı. Yəni, növbə sonuncunundur. Ya birbaşa danışıqlara razılıq vermək, ya da...

R.ƏVƏZ
XQ

Bakıda qlobal qadın hüquqları çağırışları

Bakıda keçirilən "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans noyabrın 21-də öz işini panel müzakirələrlə davam etdirib.

İnsanlığı xoşbəxt gələcəyə aparan yol

Konfransın ilk panel müzakirəsi "Qadın: parlaq gələcəyə aparan yol" mövzusu ətrafında olub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, qadınlar öz fərqli baxışları, səmimiyyəti, enerjisi və gücü ilə bizə ilham vermək və dünyamızı işıqlandırmaq qabiliyyətinə sahibdirlər. Təəssüf ki, bu gün dünyamız hələ də qadınların həyatına son dərəcə mənfi təsir göstərən bir-biri ilə sıx əlaqəli olan bir sıra böhranlarla üzləşir. Bütün bunlar gender bərabərliyinə nail olmaq və qadınları gücləndirmək sahəsində hələ də maneə olaraq qalmaqdadır.

Sahibə Qafarova bildirib ki, Azərbaycanda qadınlar ölkənin ictimai həyatının bütün sahələrində fəal iştirak edir, yüksək rəhbər vəzifələr tuturlar. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi möhtəşəm ictimai və siyasi fəaliyyət qadınların cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi dəyərli töhfələri təcəssüm etdirir.

Özbəkistanın Baş nazirinin müavini, Ailə, Qadın Komitəsinin sədri Züleyxa Məhəmova çıxışında ölkəsində qadınların və kişilərin səlahiyyətlərinin və hüquqlarının bərabər təminatı üçün addımların atıldığını, islahatların aparıldığını deyib. İctimai-siyasi həyatda, ciddi qərarların qəbulunda qadınların rolunun danılmaz olduğunu söyləyən Baş nazirin müavini qeyd edib ki, Özbəkistanda millət vəkillərinin 33 faizi, siyasi partiya üzvlərinin 46 faizi qadınlardır.

Uqandanın əmək və sosial inkişaf naziri Betti Amongi Ongom parlaq və uğurlu gələcək naminə qadınların rolundan danışıb, onların statusunun və hüquqlarının tanınmasının əhəmiyyətini qeyd edib. Uqandalı nazir deyib ki, mövcud olan imkanlardan və gücdən qadınların hüquqlarının, gender bərabərliyinin təşviqi, onlara bərabər imkanların təminatı üçün istifadə edilməlidir. Qadınların təməl hüquqlarının təminatı üçün dövlət institutları dəstək verməlidir.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva çıxışında Azərbaycanda qadınların hüquqlarının qorunması istiqamətində görülən işlərdən bəhs edib. Bildirib ki, bu gün Azərbaycanda dövlət qeydiyyatına alınmış 4 minə yaxın qeyri-hökumət təşkilatından təxminən 40 faizinin rəhbəri qadınlardır.

Tədbirdə çıxış edən Fransa kolonializminə qarşı Bakı Təşəbbüs Qrupunun üzvü Ella Tokoragi bu gün qadınların öz hüquqları uğurunda mübarizə apardıqlarını deyib. Qadınların bir sıra istiqamətlərdə səlahiyyətləndirilməsinin əhəmiyyətini vurğulayan Ella Tokoragi Fransız Polineziyasında bəzi məsələlərə diqqət çəkib: "Onların səhiyyə xidmətlərinə əlçatanlığı təmin olunmalıdır. Pandemiya Fransız Polineziyasında çox pis idarə olundu, 260 min əhalisi olan ölkədə böhran yaşandı. Fransanın bizim ərazilərimizdə öz məqsədləri üçün bomba sınaqları həyata keçirməsi əhalinin sağlamlığına mənfi təsir göstərib, insanlar arasında xərçəng xəstəliyi yayılıb".

* * *

Konfrans çərçivəsində, həmçinin "Dayanıqlı inkişaf üçün 2030-cu il gündəliyinin həyata keçirilməsinin sürətləndirilməsi və canlandırılmasında qadınların səlahiyyətlərinin artırılması" mövzusunda panel iclası keçirilib.

Uqanda hökumətinin qadın sahibkarlıq proqramı üzrə nümayəndəsi Joel Acananın moderatorluğu ilə aparılan panel müzakirələrdə çıxış edən Zimbabvenin qadın işləri, icma, kiçik və orta sahibkarlığın inkişafı naziri Monika Mutsvangva ölkəsinin gender bərabərliyinə çox böyük önəm verdiyini deyib. Bildirib ki, 100 illik müstəmləkəçilikdən sonra Zimbabve azadlığa qovuşub. Bu azadlıq mübarizəsində qadınlar xüsusi rol oynayıblar. O qadınlar Zimbabvenin qəhrəmanlarıdır.

Qadın hüquqlarının təminini parlaq gələcəyin əsas şərtlərindən hesab edən Monika Mutsvangva xüsusilə davamlı inkişaf məqsədlərinə nail olunması baxımından bunun əhəmiyyətini vurğulayıb. O, qadın sahibkarların bir-birini dəstəkləməsinin vacibliyini qeyd edib.

BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreyeva isə çıxışında deyib: "2030-cu il üçün az vaxt qalıb. Cəmi 7 il, bu uzun müddət deyil. Təəssüflər olsun ki, dünya qarşıya qoyulan hədəflərdən çox geridə qalıb. Parlamentdə qadınların təmsilçiliyində geridə qalırıq. Üzv dövlətlərdə qarşıya qoyulan məqsədlərə çatmaq üçün işlər bu sürətdə davam edərsə, 300 il sonra uşaq evliliyinə son qoya bilərik. Hazırda 5 qızdan biri 18 yaşda ailə qurur. 286 ildən sonra isə ayrı-seçkiliklə bağlı qanunları aradan qaldırmaq mümkün olacaq. 140 il sonra biz iş yerlərində rəhbər vəzifələrdə bərabərliyə nail olacağıq".

Qoşulmama Hərəkatı Gənclər Təşkilatının baş katibi Leyla Həsənova qeyd edib ki, 2030-cu il gündəliyinin səmərəli şəkildə icrası üçün ciddi addımlar atılmalıdır. Qadınların səlahiyyətlənməsi yalnız sosial ədalət məsələsi deyil. Pandemiya və geosiyasi vəziyyət bu məqsədlərə çatmaqda əsas problemləri təşkil edir.

Müstəqil Martinika naminə ekoloqlar və demokratlar Hərəkatının sədrinin müavini Claudette Duhamel çıxış edərək xalqının məruz qaldığı müstəmləkəçilik siyasətindən danışıb: "Biz etnik baxımdan köklərimizə bağlı olsaq da qərb mədəniyyətinə inteqrasiya olunmuşuq. Təkcə ərazi olaraq deyil, mentalitet baxımından da biz işğal olunmuşuq".

O, əcdadlarının sanki bir hərb düşərgəsi rejimində yaşadığını deyərək qeyd edib: "Ağ dərili fransızlar özlərini ali irq olaraq görüb qara dərililəri insan statusunda belə qəbul etmirdilər. Qara dərililərə əşya kimi davranırdılar. Onlar bizi qul səviyyəsinə endirmək üçün xüsusi rejim yaratmışdılar. Burada məqsəd gələcəyə hesablanıb. İnsanlarda müstəmləkə təfəkkürünü yaratmağa, öz köklərini unutdurmağa çalışırlar. Elə bir mentaliteti yaratmaq istəyirlər ki, insanlar müstəmləkəçiliyi normal qəbul etsinlər. Biz dörd əsrə bərbər quldarlığa məruz qalmışıq. Fransızlar quldarlıq siyasəti yeridirlər".

Panel iclasda mövzu ətrafında müzakirələr aparılıb.

Konfransın bağlanış sessiyasında çıxış edən Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyi dövründə irəli sürdüyü vacib təşəbbüslərdən biri də qadın hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsi üçün platformanın yaranması istiqamətində atdığı addımlardır. Hərəkata üzv ölkələr və onların nümayəndələri Azərbaycanın bu təşəbbüsünə böyük dəstək göstərdi. Bütün nümayəndələr hazırkı platformada sözügedən təşəbbüsü reallaşdırmaq üçün toplaşıb. Bu mövzuda keçirilən konfrans Qoşulmama Hərəkatı tarixində bir ilkdir.

Konfrans Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə olduqca aktual mövzunu əhatə edir. İlham Əliyev sadəcə ideya müəllifi deyil, eyni zamanda, konfransın keçirilməsinin ən böyük dəstəkçisidir. Dövlətimizin başçısının dünənki müraciəti özündə bir sıra istiqamətləri əhatə edirdi. Müraciət Qoşulmama Hərəkatının son illərdəki problem istiqamətlərində yeniliklər və beynəlxalq aləmdəki mövcud vəziyyətinə qiymət verərək, təsisatın gələcək istiqamətlərini müəyyən edib. Bu, bizə həm ölkə içərisində, həm də müxtəlif formatda bütün proseslərin iştirakçısı olmağa dəstək verir.

Bununla da "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans işini yekunlaşdırıb.

XQ

Zərif məxluq müstəmləkəçiliyə qarşı güclü qüvvədir

Bakıda keçirilən "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans çərçivəsində, həmçinin Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişafı" mövzusunda iclas keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakçılara müraciəti oxunub. Müraciəti Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev səsləndirib.

Sonra çıxış edən "Lagazetteaz.fr" qəzetinin baş icraçı direktoru Jan-Mişel Brun Fransanın müstəmləkə siyasətindən və bu siyasətdən əziyyət çəkən insanların hüquqlarının pozulmasından danışıb. O deyib: "Azərbaycan qadına azadlığı hələ əsrlər bundan əvvəl verib. Fransaya isə bu, 5 əsr sonra gəlib. Biliklərin dekolonizasiyası qadınların dövlətin, ictimaiyyətin həyatına müsbət təsirini göstərməkdədir. İnanıram ki, Bakı konfransı bu istiqamətdə öz töhfəsini verəcək.

Fransa bütün dünyanı gəzərək öz bayrağını asmağa çalışıb və çətin şəraitdə yaşayan xalqları öz əsarətində saxlayıb. Bu müstəmləkəçilik siyasəti əsrlərdir davam edir. Fransa 1958-ci ildə Əlcəzairdə qadınları bir araya yığaraq çadralarını atmalarını dedi. Amma bu, "azadlıq" adı altında bir hiylə idi.

Azərbaycan gender bərabərliyi mövzusunda örnəkdir. Bu ölkədə qadınlar kişilərlə birgə çiyin-çiyinə çalışır", – deyə o əlavə edib.

Korsikada qadınların hüquqlarının pozulduğunu diqqətə çatdıran Martinikanın Azadlıq Partiyasının nümayəndəsi Luk Fransis Karol bu adada qadınların ağır formada zorakılığa məruz qaldıqlarını qeyd edib.

Seneqal "YDNA VITA" LTD təşkilatının rəhbəri olan İbrahima Diagne müstəmləkəçiliyin insanları tam təcrid etmək olduğunu bildirib. O deyib ki, dominantlığa son qoyulmalı və irqi ayrı-seçkilik başa çatmalıdır.

"Fransa qardaşlıqdan, bərabərlikdən, azadlıqdan danışır, amma bu hüquqların kimin üçün olduğunu anlamır. Çünki tarix də sübut edir ki, bu ölkəmin müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqlarımız həmişə ayrı-seçkiliyə məruz qalıblar", – deyə Qvadelupanın Beynəlxalq Reparasiya Hərəkatının Birinci vitse-prezidenti Viktorin Cinna iclas iştirakçılarının diqqətinə çatdırıb.

Fransanın öz maraqlarından çıxış edərək Afrika ölkələrini istismar altında saxladığını vurğulayan nümayəndə qitə ölkələrini müstəmləkəçilik siyasətinə qarşı birliyə, həmrəyliyə çağırıb.

Digər çıxış edənlər də müstəmləkəçilik siyasətinə qarşı mübarizənin vacibliyini bildirib, səyləri birləşdirməyə çağırış ediblər. Qeyd olunub ki, özünü dünyada humanist, demokratik ölkə kimi qələmə verən Fransa XXI əsrdə müstəmləkəçilik siyasəti yürütməkdə davam edir və buna son qoyulmalıdır.

"Dekolonizasiya: qadınların gücləndirilməsi və inkişafı" mövzusunda iclasdan sonra fləşmob nümayiş etdirilib. Fləşmob çərçivəsində Fransa yürütdüyü müstəmləkəçilik siyasətindən əziyyət çəkən ölkələrin konfransdakı nümayəndələri xəritə üzərinə öz bayraqlarını sancaraq beynəlxalq ictimaiyyətə çağırış ediblər.

Xatırladaq ki, Azərbaycan BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) 2019-cu ildən etibarən rəhbərlik edir. Ölkəmizin təsisata sədrliyi dövründə gördüyü işləri yüksək qiymətləndirən Hərəkata üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycanın sədrliyi daha bir il uzadılıb.

XQ

Konfransın Bəyannaməsi

Bakıda keçirilən konfransın yekun Bəyannaməsi qəbul olunub.

Qoşulmama Hərəkatının konfransda təmsil olunan üzv dövlətləri Bəyannamədə Hərəkatın perspektiv gündəliyi kimi insan hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsinə sadiqliklərini vurğulayıb, qadınların inkişafı və onların insan hüquqlarının təmin olunması sahəsində problemlərinin həlli üçün siyasi iradələrini bir daha ifadə ediblər.

İştirakçılar cəmiyyətin bütün sahələrində qadınların təmsil olunmalarını, tam, bərabər və mənalı iştirakını təmin etmək öhdəliklərini bir daha təsdiqləyib, Qoşulmama Hərəkatının üzv dövlətlərinin siyasi sistemlərində onların bərabər iştirakının təşviqinin xüsusi əhəmiyyətini bildiriblər.

Həmçinin birtərəfli məcburetmə tədbirlərinin qadınlara və qızlara, o cümlədən, onların rifahının və insan hüquqlarının tam təmin olunmasına yönəlmiş milli siyasət və proqramlara zərərli təsiri tanınıb, bu kontekstdə onların dərhal və qeyd-şərtsiz tam ləğvini pisləmək və tələb etmək əzminə sadiqlik bir daha ifadə olunub.

BMT sisteminin təşkilatlarının öz mandatları çərçivəsində qadınların inkişafı və səlahiyyətlərinin artırılması, onların insan hüquqlarından istifadə edilməsinin təşviqində bütün dövlətlərin səylərini dəstəkləmək üçün mərkəzi və əlaqələndirici rolu tanınıb.

İştirakçılar, habelə gender bərabərliyinə nail olunması, bütün qadınların və qızların səlahiyyətlərinin artırılması üzrə məqsədin, eləcə də gender perspektivinin 2030-cu il İnkişaf Gündəliyinə daxil edilməsini və inteqrasiyasını alqışlayıblar.

Onlar Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması təklifini nəzərə aldıqlarını, Qoşulmama Hərəkatının Koordinasiya Bürosu vasitəsilə bu təşəbbüsü, o cümlədən, onunla bağlı iş üsullarını müzakirə etdiklərini diqqətə çatdırıblar.

Sonda qonaqpərvərliyə və noyabrın 20–21-də Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması mövzusunda beynəlxalq konfransa evsahibliyi etdiyinə görə Azərbaycan xalqına və hökumətinə minnətdarlıq ifadə edilib.

Beləliklə, Bəyannamədə də qeyd edildiyi kimi, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının çətiri altında daha bir qurum – Qadınlar Platformasının yaradılması qərara alınıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Şəbəkəsindən sonra Qadınlar Platformasının təsis olunması Azərbaycanın Hərəkatın fəaliyyətinin daha da təkmilləşdirilməsinə növbəti töhfəsidir.

XQ

Prezident Əbdüllətif Camal Rəşid İçərişəhərlə tanış olub



Ölkəmizdə rəsmi səfərdə olan İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 21-də dünya mədəni irs abidələrindən biri olan İçərişəhərlə tanış olub.

Gəzinti zamanı ali qonaq orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan "Şirvanşahlar sarayı kompleksi"ni ziyarət edib.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Kiçik Qala küçəsi ilə gəzinti zamanı İraq Prezidentinə UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Əbdüllətif Camal Rəşid burada isti təndir çörəyinə qonaq edilib.

İçərişəhərlə tanışlıq ali qonaqda xoş təəssürat yaradıb.

İraq Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatıb



İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycan Respublikasına rəsmi səfəri noyabrın 21-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İraq Prezidenti Əbdüllətif Camal Rəşidi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

22 Noyabr Azərbaycanda Ədliyyə İşçiləri Günüdür

Azərbaycan ədliyyəsi müasir çağırışlar çevrəsində

Böyük tarixi zəfərlər qazanan dövlətimizlə həmahəng inkişaf edən 105 yaşlı Azərbaycan ədliyyəsi müasir dövrün çağırışlarına uyğun şəkildə inkişaf edir. Ədliyyə Nazirliyinin yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır.

Nazirlik öz işinə, ilk növbədə, ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlayıb, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilib, binalar qaydaya salınıb, çətinliklə də olsa, hüquq ədəbiyyatı kitabxanası yaradılaraq 6 aylıq hüquq kursları təşkil edilib. Eyni zamanda, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilib, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilib.

Lakin çox təəssüflər olsun ki, bolşeviklərin işğalı nəticəsində AXC süqut edib. Bundan sonra Azərbaycan ədliyyəsinin Sovet dövrü başlayıb. Belə ki, İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilib, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilib. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək, onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilib...

Sovet dövrü Azərbaycan ədliyyəsinin əsas inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ədliyyə Nazirliyinin yenidən yaradılması Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da Azərbaycan ədliyyəsi tarixində yeni mərhələ başlandı. Bu da həmin dövrdə Ədliyyə Nazirliyi sisteminə daxil olan bütün sahələrin yenidən qurulmasına, təkmilləşməsinə, inkişafına səbəb oldu.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ədliyyə sahəsinə də xüsusi diqqət göstərib. Ümummilli liderin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə 1918-ci ildə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi tarix – 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü təsis olunub. Neçə illərdir ki, ədliyyə işçiləri 22 noyabrı öz peşə bayramları olaraq qeyd edirlər.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə də ədliyyə sahəsinə diqqət və qayğı siyasəti davam etdirilib. Azərbaycan Prezidenti daim bu sahəni diqqətdə saxlayır. Ədliyyə Akademiyasının yaradılması bilavasitə Prezident İlham Əliyevin adı ilə bağlıdır.

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-cı il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyinin strukturu daxilində Ədliyyə Akademiyası yaradılmışdır. 2008-ci il 21 noyabr tarixli fərmanla Ədliyyə Akademiyasının nizamnaməsi təsdiq edilmişdir.

Prezident İlham Əliyevin 2018-ci il dekabrın 18-də təsdiq etdiyi "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üzrə" Dövlət Proqramı ilə ədliyyə və məhkəmə sisteminin inkişafı üçün 5 il ərzində yeni hədəflər müəyyən olunmuşdu.

Prezidentin 2019-cu il aprelin 3-də imzaladığı fərmanla Azərbaycanda məhkəmə islahatları müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçid edib. Həmin sənədin icrası çərçivəsində qısa müddətdə bu sahədə nəhəng işlər görülmüş, institutsional tədbirlər çərçivəsində 13 regional məhkəmə, o cümlədən bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır.

İslahatlar daxilində artıq Mülki-Prosessual Məcəlləyə 350-dək dəyişikliklər edilib, o cümlədən sadələşdirilib və yazılı icraat genişləndirilib. Məhkəmə proseslərində videokonfrans və elektron icraat tətbiq edilməkdədir. Məhkəmə rüsumlarının diferensiasiyasının tətbiqi də diqqət çəkən faktlardandır.

2020-ci il Azərbaycan dövləti üçün şanlı qələbə ili oldu və ölkəmizdə uzun illər ərzində formalaşmış möhkəm ictimai-siyasi və sosial-iqtisadi bünövrə, tarixi torpaqlarımızın işğaldan azad edilməsi qarşıdakı illərdə sistemli və davamlı islahatlara əlavə imkanlar yaratdı. Müasir dövrdə islahatlar qabaqcıl texnologiyalar tətbiq edilməklə həyata keçirilir, müxtəlif sahələrdə, o cümlədən də ədliyyə sahəsində rəqəmsal xidmətlər mövcuddur.

Ədliyyə və məhkəmə sahəsi də müasir informasiya texnologiyalarının tətbiqi ilə inkişaf edir və mütərəqqi islahatlar aparılır. Bu gün Ədliyyə Nazirliyi "Elektron hökumət" sisteminin fəal iştirakçısıdır. Nazirlik tərəfindən aparılan və on minlərlə normativ sənədi ehtiva edən Hüquqi aktların vahid elektron bazası vasitəsilə hər kəs ödənişsiz olaraq, ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. Eyni zamanda, "Elektron notariat" innovasiyaların tətbiqi üçün geniş imkanlar açıb. Həmçinin rəqəmsallaşdırmanın yeni mərhələsi olaraq "Mobil notariat" tətbiqi yaradılıb. Onun istifadəçiləri notariat ofisinə getmədən videoəlaqə mkanına malikdirlər. Ədliyyənin elektron reyestrlərinə digər dövlət orqanlarının da inteqrasiyası vətəndaş məmnunluğuna əlavə şərait yaradıb. Böyük sosial əhəmiyyətə malik olan DOST mərkəzlərində göstərilən notariat xidməti, burada yaradılmış elektron notariat kabinetləri vasitəsilə vətəndaşlar notariusla dərhal video-əlaqə saxlayaraq, notariat əməliyyatını həyata keçirə bilirlər. Biznes mühitinin yaxşılaşdırılması məqsədilə analoji xidmətlər banklarda da yaradılıb. Bütün bunlar Azərbaycan ədliyyəsinin son illərdə əldə etdiyi nailiyyətlərin qısa nümunələridir.

Nicat MİRZƏYEV,
Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzi ballistik və trasaloji ekspertizalar şöbəsinin aparıcı eksperti, 1-ci dərəcəli ədliyyə qulluqçusu

Naxçıvan

Ölkəmizdə həyata keçirilən daşınmaz əmlak və torpaq islahatlarının əsas tərkib hissəsi kimi, mülkiyyət hüquqlarının tanınması, toxunulmazlığı və qorunması da prioritet məsələlərdən biridir. Respublikamızın qanunvericilik aktlarında, tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə öz əksini tapan vətəndaşların bu sahədəki qanuni mənafelərinin müdafiəsi, hüquqları barədə maariflənidrmə olduqca vacibdir. Günümüzdə aktuallıq kəsb edən bu məsələ ilə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri İsa Allahverdiyevlə həmsöhbət olduq.

Vətəndaşın mülkiyyəti özünə qaytarılır...

– İsa müəllim, istərdik ki, söhbətimizin əvvəlində daşınmaz əmlaka münasibətdə vətəndaşların mülkiyyət hüquqlarının tanınması və toxunulmazlığı barədə məlumat verəsiniz.

– Daşınmaz əmlaka münasibətdə mülkiyyət hüququnun əldə edilməsi, itirilməsi və pozulması halları Azərbaycan Respublikasının Konstitusiyasında, digər normativ hüquqi aktlarda, eləcə də ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə öz əksini tapıb. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Konstitusiyamızın 13-cü maddəsində göstərildiyi kimi, Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyətin 3 növü (dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti) mövcuddur. Eyni zamanda, Konstitusiyanın 29-cu maddəsinin tələblərinə əsasən, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz və dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

– Vətəndaşlar mülkiyyətlərinin dövlət qeydiyyatına alınması üçün nə etməlidirlər?

– Mülki Məcəllənin 139-cu maddəsinə əsasən, mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, yaranması, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən (Naxçıvanda Muxtar Respublikanın Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti) qanunvericiliklə müəyyənləşdirilən qaydada tərtib edilən daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir. Qeyd olunan hüquqların dövlət qeydiyyatı üçün vətəndaşlar tələb olunan sənədlərlə birgə həmin orqana müraciət yolu ilə təyin edilən rüsumlarını ödəməklə mülkiyyət hüquqlarını təsdiqləyən sənədləri əldə edə bilərlər.

– Bəs yerli icra hakimiyyətlərinin vətəndaşların mülkiyyət hüquqlarını təmin etməsi və bununla bağlı müraciətləri qeydə alması hansı formada tənzimlənir?

– Yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli Fərmanı ilə təsdiqlənən "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların tələbləri əsasında mülkiyyətin qorunmasını, mülkiyyət hüququnun pozulmasının qarşısının alınmasını, həmçinin vətəndaşların mülkiyyət hüquqlarını təsdiqləyən sənədləri əldə etmək üçün əsas verən inzibati aktların (müvafiq sərəncamlar, əmrlər və s.) qəbul olunmasını gerçəkləşdirir və dövlət mülkiyyətində olan torpaq ehtiyatlarından səmərəli istifadə məqsədilə müvafiq tədbirlər görürlər. Vətəndaş müraciətlərinin təmin edilməsi isə "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının qanununa uyğun formada həyata keçirilir.

– Vətəndaşların mülkiyyət hüquqlarının pozulmasının qarşısının alınması ilə bağlı fəaliyyətiniz necə gerçəkləşir?

– Naxçıvan Şəhər İcra Hakimiyyətində son dövrlərdə müxtəlif hüquq pozuntuları ilə bağlı vətəndaş müraciətləri artıb. Qeyd olunan müraciətlərin əksəriyyəti mülkiyyət hüquqları pozulmuş vətəndaşlarla bağlıdır və onların bir çoxunun işi aidiyyəti üzrə məhkəmə qaydasında həllini tapır. Mülkiyyət hüququ pozulmuş vətəndaşlar əvvəlcə tələb olunan sənədlər əsasında icra hakimiyyətində qeydiyyata alınır və daha sonra məhkəməyə müraciət etmələri ilə bağlı onlara ətraflı məlumat verilir.

Təəssüf ki, hazırda mülkiyyət hüquqlarının pozulması ilə bağlı şəhər icra hakimiyyətinə qarşı iddia tələbi irəli sürmüş vətəndaşların daşınmaz əmlak obyektləri, təximnən, 2003–2015-ci illərdə qeyri-qanuni formada, məhkəmə qərarı olmadan sökülmüş və onlara qarşılığında hər hansısa kompensasiya ödənilməmişdir.

Sevindirici haldır ki, qeyd olunan məsələ ilə bağlı vətəndaşların pozulmuş hüquqlarının bərpası və onlara dəymiş ziyanın qarşılanması üçün Naxçıvan Şəhər İcra Hakimiyyəti tərəfindən 17 avqust 2023-cü il tarixli sərəncama əsasən, qurumun öz vəsaiti hesabına şəhərin müvafiq ərazilərindən həmin vətəndaşlara yaşayış və qeyri-yaşayış sahələri üçün torpaqlar ayrılıb. Əlavə olaraq qeyd etmək istərdim ki, son 3 ay ərzində Naxçıvan Şəhər İcra Hakimiyyətinə mülkiyyət hüququ pozulmuş vətəndaşlar tərəfindən 470 ərizə daxil olub, onlardan 255-i aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinə göndərilib. Həmin vətəndaşdan 156 nəfəri Naxçıvan Şəhər İcra Hakimiyyətinin təklif etdiyi torpaq sahəsi ilə razılaşıb və onlardan 133 nəfərin hüquqları dövlət qeydiyyatına alınması üçün muxtar respublikanın Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinə göndərilib.

Daxil olan məhkəmə işlərinin 81-nə müvafiq məhkəmə tərəfindən rəsmi qaydada xitam verilib. Bu, o deməkdir ki, mülkiyyət hüquqları pozulan vətəndaşlar tərəfindən daxil olan müarciətlərin, təxminən, 75 faizi öz həllini tapıb və digər məhkəmə prosesi davam edən vətəndaşlarla isə məsələlərin müsbət həlli üçün danışıqlar aparılır. Bununla paralel olaraq, vətəndaşların pozulan hüquqlarının bərpasına dair hüquqi maarifçilik işlərinin artırılması, eyni zamanda, onlara dolğun, düzgün və qanunvericiliyin tələblərinə uyğun məlumatların verilməsi ilə əlaqədar icra hakimiyyəti tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

Söhbəti apardılar:
Mirbağır YAQUBZADƏ,
Səbuhi HƏSƏNOV
XQ

Bakı–Naxçıvan–Bakı

Gəncənin ekoloji parkı, idman sarayı...

Bu sosial obyektlərin hərəsi şəhərin müxtəlif yerlərində ucaldılıb. Biri Gəncəçayın sağ sahilində, hazırda son tamamlama işləri aparılan, ölkəmizin hələlik yeganə Ekoloji Park Kompleksidir. Bu unikal obyekt yerli və xarici turistlərin ən sevimli məkanına çevrilməklə yanaşı, həm də istənilən mövsümdə öz yaşıllığı ilə göz oxşayacaq.

Kompleks MKTİB-nin yaşıllaşdırma şöbəsinin gülçülük sahəsində salınıb və 11 hektar ərazini əhatə edir. Ümumi sahəsi 2100 kvadratmetr olan üçmərtəbəli oranjereya binasının hündürlüyü 22 metrdir. Tikilinin əsas hissəsi dəmir-beton, metal və şüşə-vitraj konstruksiyalarla yığılıb. Fərqli dizaynı ilə seçilən kompleksdə turistlərin rahatlığı üçün bütün şərait yaradılıb. Burada istənilən fəsildə müxtəlif növ nadir gül-çiçək, kol bitkiləri, eləcə də ağac tinqləri yetişdiriləcək. Bu işi həyata keçirmək üçün oranjereya binasının daxilində bitkilərin normal inkşafını təmin edəcək xüsusi isitmə və havalandırma sistemləri quraşdırılıb.

Ekoloji Park Kompleksin ərazisində əyləncə mərkəzləri, idman qurğuları, iaşə obyektlərinin yerləşdirilməsi də planlaşdırılıb. Bura gələn ziyarətçilər həmçinin müxtəlif növ gül-çiçək, kol bitkiləri, eləcə də ağac tinqlərinin yetişdirilməsi işləri ilə tanış ola biləcəklər.

Parkın ərazisində yeni yollar çəkilib, avtomobil dayanacağı salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb, yağış və damcı suvarma sistemləri ilə təchiz olunmuş istixanalar tikilib. Ekoloji parkın Gəncə çayı tərəfdəki ərazisində hasarlama 540 ədəd sərv ağacı əkilib, binasının ətrafına isə mozaika daşları döşənib. Kompleksin girişində Ekoloji parkın rəmzi hesab olunan "Zeytun ağacı insan ovcunda" abidəsi qoyulub.

Qeyd edək ki, Azərbaycanda pilot layihə olaraq ilk dəfə Gəncə şəhərində reallaşdırılan Ekoloji Park Kompleksində hazırda qazon salınır, mövcud yaşıllıq zolağına aqrotexniki qulluq göstərilir və tikilinin daxilində son tamamlama işləri həyata keçirilir.

Başqa bir nəhəng obyekt də şəhərin çox görməli və səfalı guşəsində ucaldılıb. Bu, Heydər Əliyev Park Kompleksin giriş hissəsinə yaxın ərazidə salınan nəhəng İdman Sarayıdır. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, inşasında son tamamlama işləri sürətlə aparılan kompleksdə, yerli və beynəlxalq yarışların keçirilməsi üçün hərtərəfli şərait yaradılıb.

Ümumi sahəsi 16 hektar olan Gəncə İdman Sarayı ölkəmizdə beynəlxalq olimpiya normaları çərçivəsində inşa edilən ən böyük idman qurğusu hesab edilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev obyektdə tikinti işlərinin gedişi ilə yaxından tanış olarkən "bu çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda İdman sarayı yoxdur, hətta Bakı şəhərində", – deyə bildirib. İki hissəli saray 4 və 5 mərtəbədən ibarətdir. Beynəlxalq turnirlərin keçirilməsi üçün bu məkanda 3 min tamaşaçı tutumlu böyük idman zalı, üzgüçülük hovuzu, ümumilikdə isə idmanın 14 növü üzrə zal və məktəblər fəaliyyət göstərəcək.

Gəncə İdman Sarayında kafe və restoranların, 160 idmançı üçün otel kompleksinin olması da yerli və xarici komandaların məşq etməsinə, burada gecələməsinə və istirahətinə imkan yaradacaq.

…Gəncə Şəhər Stadionunun ərazisində salınan Gəncə Futbol Akademiyası da qapılarını açmağa hazırdır. Hazırda burada mebellər yerbəyer edilir, digər avadanlıqlar quraşdırılır, inzibati binanın ərazisinə yeni yaşıllıqlar salınır, abadlıq işləri görülür. Bu günlərdə Akademiyada aparılan işlərin gedişi ilə yaxından tanış olmaq üçün obyektdə olduq. Avqust ayından Akademiyaya rəhbərlik edən Cabir İbrahimov burada yaradılan şəraitlə bizi tanış etdi və iftixarla bildirdi ki, belə bir Akademiya binası heç Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda yoxdur.

Uşaq və yeniyetmə idmançıların peşəkar futbolla yaxından məşğul olması üçün hər cür şərait yaradılıb. Gözəl yataq, məşğələ, istirahət otaqları, akt zalları və digər otaqlar müasirliyinə görə də diqqəti cəlb edir, göz oxşayır.

Gəncə Azərbaycanın ikinci böyük şəhəri olması ilə həmişə fəxr edir və çalışır ki, bu adı daim doğrultsun. Hazırda şəhərdə geniş abadlıq-quruculuq, yaşıllaşdırma işləri həyata keçirilir, illər uzunu asfalt üzünə həsrət qalan yollar öz görkəmini dəyişir, içıqlandırma sistemi yenilənir, müasir səviyyəyə çatdırılır. Doğrudur, bir ara şəhərdə su və kanalizasiya xəttinin çəkilişi layihəsində müəyyən işlər ləngidiyindən, yolların və küçələrin abadlaşdırılmasında da fasilələlər yaranmışdı. Lakin həmişə olduğu kimi, bu dəfə də ölkə Prezidentinin böyük qayğısı nəticəsində Gəncə yenə geniş tikinti meydanını xatırladır. Elə yuxarıda haqqında söhbət açdığımız 3 nəhəng obyekt dediklərimizə əyani sübutdur.

Hamlet QASIMOV,
XQ-nin bölgə müxbiri

Gəncə

Qafqaz lideri və Asiya nəhəngi gələcəyə körpü salır

Söhbət Azərbaycanın və Çinin "Bir kəmər, bir yol" layihəsinə önəmli dəstəyindən gedir

Çinin Sian şəhərində 7-ci İpək Yolu Beynəlxalq Sərgisi çərçivəsində keçirilən konfransda bu ölkə ilə Azərbaycan arasında iqtisadiyyat, ticarət və turizm sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Tədbirdə Çinin Şansi vilayətindən başlayan tarixi İpək yolunun əsrlər boyunca təkcə ticari əlaqələrinin deyil, həm də xalqlarımızın dostluğunun formalaşmasında mühüm rol oynadığını bildirilib. Eyni zamanda, "bir kəmər, bir yol" təşəbbüsünün icrasında Çin ilə Azərbaycanın birgə çalışdığı, dövlət başçıları Si Cinpin və İlham Əliyevin ötən il Səmərqənd görüşündə ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı, qarşılıqlı etimadın və dəstəyin gücləndirilməsi ilə bağlı razılıq əldə etdikləri vurğulanıb. Xatırladaq ki, qarşılıqlı dostluq və etimad prinsiplərinə əsaslanan Azərbaycan–Çin münasibətləri illərin sınağından uğurla keçərək hazırda dinamik, hərtərəfli inkişaf dövrünü yaşayır və keyfiyyətcə yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir.

Dövlət başçılarımızın Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddəki sammiti çərçivəsində keçirdikləri son görüş zamanı iqtisadi əməkdaşlığın diversifikasiyası və onun keyfiyyətcə yeni məzmun ilə zənginləşdirilməsinə dair tapşırıqları bu gün diqqət mərkəzində saxlanılır. Hazırda iqtisadiyyatın müxtəlif sahələri-energetika, nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və qarşılıqlı fəaliyyətin digər istiqamətləri üzrə əməkdaşlıq spektrinin genişləndirilməsi imkanları nəzərdən keçirilir. Bu, statistik rəqəmlərdən də aydın görünür. 2022-ci il Azərbaycan–Çin ticarət əlaqələrinin həcmi əvvəlki illə müqayisədə 21 faizdən çox artaraq, təxminən 2,2 milyard dollara çatması, bu müsbət dinamikanın bu il də davam etməsi və cari ilin 9 ayında qarşılıqlı ticarət həcminin, təqribən, 50 artması bunun bariz ifadəsidir.

Bu rəqəmlər Azərbaycanın Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğunu göstərir. Həmçinin enerji sahəsi də ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın mühüm komponenti kimi diqqət çəkir. Bu, həm də Çinin alternativ enerji sahəsində qabaqcıl təcrübəsinin və texnologiyasının Azərbaycan üçün böyük maraq doğurduğundan xəbər verir.

İki ölkə arasında əməkdaşlığın əsas istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsidir. Ötən müddətdə bu sektorda Azərbaycandan keçən nəqliyyat arteriyaları, yaradılan müasir infrastruktur, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və digər layihələrin Çindən Avropaya və geriyə yüklərin daşınması üçün ən qısa və səmərəli nəqliyyat marşrutlarının formalaşmasında oynadığı rol bunun bariz ifadəsidir. Yeri gəlmişkən, Çinin tranzit operatorları və logistika şirkətlərinin Orta dəhlizə marağı getdikcə artır. Bu baxımdan blok qatarlarının formalaşdırılması, logistika məlumatlarının mübadiləsi və yüklərin yerləşdirilməsi sahəsində əməkdaşlığı xüsusi diqqət çəkir.

Orta Dəhliz Xəzər dənizi vasitəsilə Qazaxıstan, Azərbaycan, həmçinin Gürcüstan ərazilərindən keçməklə Çin və Türkiyə arasında ən qısa marşrutdur və Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün mühüm tərkib hissəsidir.

Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmiryolçuları arasında birgə müəssisənin yaradılması tarif şərtlərini birləşdirməyə və "bir pəncərə" prinsipi ilə xidmətlər göstərməyə, çatdırılma müddətlərini tənzimləməyə, Çindən Avropaya və əks marşrutda multimodal xidmətin inkişafı üçün razılaşdırılmış siyasət aparmağa imkan verəcək. Bu da yekunda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə daşımaların həcminin artmasına müsbət təsir göstərəcək.

Qeyd edək ki, hazırda Qazaxıstan iri infrastruktur layihələri istiqamətində digər dəmir yolu xətlərinin tikintisi ilə Çinlə əlavə keçid məntəqəsi açır ki, bu da yükdaşımaların həcmini ildə 50 milyon ton artıracaq. Eyni zamanda, dəmir yolu şəbəkələrinin inkişaf etdirilməsi ilə daşımaların həcmi və sürəti 5 dəfə artacaq, Xəzərdə dəniz limanlarının inkişafı sürətlənəcək.

Bu məqamda onu da qeyd edək ki, ölkəmizin iqtisadi-ticari potensialı, biznes və sərmayə mühiti, nəqliyyat-logistika infrastrukturu, "Bir kəmər-bir yol" təşəbbüsünün icrasındakı rolu əməkdaşlığın inkişafını sürətləndirir. Siyasi və iqtisadi sabitliyin təmin olunduğu Azərbaycanda Çin şirkətləri üçün iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən sənaye, "yaşıl enerji", rəqəmsal iqtisadiyyat, nəqliyyat və kənd təsərrüfatında cəlbedici imkanlar mövcuddur. Həmçinin 30 illik işğal dövründə böyük dağıntıya məruz qalan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası prosesində Çin şirkətlərinin fəal iştirak arzusu da dost ölkələr arasındakı münasibətlərin dərinliyindən xəbər verir.

Azərbaycanın fəal təşəbbüskarı olduğu Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu bu gün digər marşrutlar arasında önə çıxarır. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə gerçəkləşdirilməsinə başlanılan bu layihəyə sonradan Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanan marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipinin tətbiqinə başlanıb.

Azərbaycan Bakı Ələt dəniz limanının ötürücülük gücünü 25 milyon tona çatdırmaq işlərinin mühüm hissəsini tamamlamaq üzrədir. Bu ilin sonuna qədər isə Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin Gürcüstan ərazisində genişləndirilməsinin yekunlaşdırılacağı gözlənilir. İqtisadiyyat naziri Mikayıl Cabbarovun Bakıda "Dayanıqlı maliyyə və investisiya" mövzusunda keçirilən II Bakı Forumunda verdiyi məlumata görə, bu layihənin tam reallaşdırılması Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində mühüm rol oynadığını təsdiqləyir. Bu isə Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən respublikamızın bir sıra strateji nəqliyyat layihələrinin təşəbbüskarı kimi çıxış etməsindən xəbər verir.

Bundan əlavə, hazırda Orta Dəhliz ölkələri arasında tranzit daşımalara aid məlumatların öncədən mübadiləsini reallaşdırıan elektron gömrük qeydiyyatı portalının yaradılmasına başlanıb. Azərbaycan Dövlət Gömrük Komtəsinin sədr müavini Natiq Şirinovun verdiyi məlumata görə, cari ilin mart ayında 6 ölkə arasında protokol imzalanıb. Bu sənədə əsasən, Orta Dəhliz boyu malların hərəkət edəcəyi ölkələrin sistemə daxil edilməsi, tranzit məsələlərinin maksimum sadələşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Vaqif BAYRAMOV
XQ

"Azəri–Mərkəzi–Şərqi" platformasından ilk hasilat quyusu qazılacaq

Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" (AÇG) neft-qaz yataqları blokunda tikilən "Azəri–Mərkəzi–Şərqi" (ACE) platformasından ilk hasilat quyusunu qazılmasına bu ay başlanılacaq.

Bunu "BP–Azərbaycan" şirkətinin maliyə məsələləri üzrə vitse-prezidenti Kolin Alan bu gün Bakıda keçirilən Neft Sənayesi Mühəndisləri Cəmiyyətinin (SPE) İllik Xəzər Texniki Konfransında çıxışı zamanı bildirib. Onun sözlərinə görə, hazırla ACE layihəsi üzrə işlər davam etdirilir və ilk hasilat quyusunun qazılmasına yaxın günlərdə start veriləcək. Layihənin istismar müddəti ərzində, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

Xatırladaq ki, bu layihənin məqsədi yeni quyular qazmaqla və əlavə dəniz obyektləri quraşdırmaqla gündə 100 min barelə qədər neft və 350 min standart kubfut qaz təşkil edən pik hasilat həcminə nail olmaqdır.

9 ayda 572 kilometrlik avtomobil yolu yenidən qurulub

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, cari ilin 9 ayında, ümumilikdə, 572 kilometr uzunluğunda avtomobil yolu, prospekt və küçələr tikilib, yenidən qurulub.

Bunun 297 kilometri respublika əhəmiyyətli, 254 kilometri yerli əhəmiyyətli, 21 kilometri isə paytaxt yollarıdır.

İstehlak bazarı 5,5 faiz artıb

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-oktyabr aylarında istehlakçıların tələbatlarının ödənilməsi üçün satılan malların və göstərilən xidmətlərin dəyəri 56,9 milyard manat olmaqla 2022-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 5,5 faiz artıb.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılan malların və göstərilən xidmətlərin dəyəri 2022-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə 5,3 faiz artaraq 54 milyard 750,9 milyon manata bərabər olub, onun 47,2 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 561 manat və ya 2022-ci ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 77 manat çox vəsait xərcləyib.

Türkmənistan da TRASEKA-ya qoşuldu

Türkmənistan Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, bu ölkə 2023-cü il noyabrın 14-də "Avropa–Qafqaz–Asiya Nəqliyyat Dəhlizinin inkişafına dair çoxtərəfli saziş"ə (TRASEKA) qoşulub.

Məlumatda vurğulanır ki, sənədin məqsədi Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionlarında iqtisadi əlaqələri, ticarət və nəqliyyat kommunikasiyalarını inkişaf, habelə beynəlxalq yük daşımalarını təşviq etmək və asanlaşdırmaqdır. "Avropa–Qafqaz–Asiya Nəqliyyat Dəhlizinin inkişafına dair çoxtərəfli saziş"lə qarşıya qoyulan vəzifələr həm də hərəkətin təhlükəsizliyini təmin etmək, nəqliyyat siyasətini uyğunlaşdırmaq və müəyyən nəqliyyat növləri arasında rəqabət üçün bərabər şərait yaratmaqdır.

Qeyd edək ki, tarixi İpək yolunun bərpasını nəzərdə tutan Avropa-Qafqaz–Asiya Nəqliyyat Dəhlizində 13 ölkə–Azərbaycan, Ermənistan, Bolqarıstan, Gürcüstan, İran, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistan iştirak edir.

XQ

Bakıda beynəlxalq iqtisadi forum

BMT Mərkəzi Asiya ölkələrinin inkişafı proqramını dəstəkləyir

Dünən Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində İqtisadi Forum işinə başlayıb. Tədbirdə iştirakçı dövlətlərin ümumi problemlərinin həlli ilə bağlı yeni strategiyaların hazırlanması, o cümlədən proqram çərçivəsində Etimad Fondunun yaradılması məsələsi müzakirə edilib. Xatırladaq ki, "SPECA regionunun qlobal bağlantı qovşağına çevrilməsi" başlığı altında iqtisadi forumun keçirilməsində məqsəd proqramın xidmətyönümlü, çevik və strateji platformaya çevrilməsidir.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov forumda çıxış edərək bildirib ki, ehtiyatlarla zənginlik ölkəmiz region dövlətləri ilə, xüsusilə, Qazaxıstan və Özbəkistanla ticarət əlaqələrinin daha da genişləndirilməsinə, iqtisadi əməkdaşlığa töhfə verir. Azərbaycanla SPECA ölkələri arasında möhkəm dostluq və iqtisadi əlaqələrin mövcudluğunu vurğulayan nazir deyib ki, Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqram regional əməkdaşlığın təşviqinə diqqət yetirir. Azərbaycanın transsərhəd əməkdaşlığa xüsusi önəm verdiyini bildirən nazirin sözlərinə görə, respublikamız digər SPECA ölkələri üçün Şərqlə Qərb arasında ticarət nöqtəsi rolunu oynayır.

Qeyd olunub ki, Azərbaycan 2022-ci ildə BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının əhatə etdiyi ölkələrlə ticarət dövriyyəsini 2021-ci illə müqayisədə 3,6 dəfə artıraraq 1,3 milyard ABŞ dollarına çatdırıb, cari ilin yanvar-oktyabr aylarında isə bu göstərici əvvəlki ilə nisbətən 16 faiz çox və ya 1,2 milyard dollar təşkil edib.

Nazir Azərbaycanın açıq dənizə çıxışı olmayan SPECA-ya üzv ölkələrinə infrastrukturlarının tam şəkildə inteqrasiyasının təklif etdiyini diqqətə çatdırıb. "Bizim qonşularımızın qarşısında eyni bir çağırış var və bu, açıq dənizə çıxışın olmamasıdır. Beynəlxalq ticarətdə belə imkanın olmaması müəyyən məhdudiyyətlər ortaya çıxarır. Biz belə olan halda bu dövlətlərin infrastrukturunun tam şəkildə inteqrasiya olunması, onlardan istifadə edilməsi üçün əməkdaşlığa hazırıq. Bizim Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu kimi layihələrimiz bu əməkdaşlıqda mühüm rol oynayacaq", – deyə M.Cabbarov bildirib.

Azərbaycanın 30 il ərzində suverenliyinin pozulmasından əziyyət çəkdiyini söyləyən nazir Mikayıl Cabbarov SPECA ölkələrinin işğaldan azad edilmiş ərazilərimizdə aktiv fəaliyyət göstəridiklərini yüksək qiymətləndiririb.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibinin müavini Dmitri Mariyasin çıxışında üzv ölkələrin əməkdaşlıq potensialından bəhs edib. Qeyd olunub ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının əhatə etdiyi ölkələrin təhcizat zəncirindəki problemləri aradan qaldırması onların nəqliyyat xərclərini 30 faizə qədər azalda bilər. Onun fikrincə, bununla SPECA ölkələrinin dəmir yolu infrastruktu imkanları və paralel olaraq konteyner daşımaları 4 dəfə arta, Orta Dəhliz üzrə konteynerlərin sayı 200 minə çata bilər. Hazırda SPECA Fondunun yaradılması üzərində fəal iş aparıldığını diqqətə çatdıran icraçı katibinin müavini fonda daxil olacaq vəsaitin faydalı işlərə, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağa yönəldiləcəyinə əminliyini ifadə edib.

Forumda Qazaxıstanın iqtisadiyyat nazirinin müavini Abzal Abdikarimov, Özbəkistanın investisiya, sənaye və ticarət nazirinin müavini Badriddin Abidov, Tacikistanın iqtisadi inkişaf və ticarət nazirinin müavini Ahliddin Nuriddinzoda və başqaları çıxış edərək BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramını uğurlu əməkdaşlıq üçün mühüm platforma kimi dəyərləndiriblər. Təchizat zəncirində məlumatların rəqəmsal transformasiyası və sənəd mübadiləsi, nəqliyyat bağlantısı, SPECA bölgəsində "yaşıl enerji" bağlılığı mövzularında müzakirələr aparıldığı forumda yeni çağırışlar fonunda Orta Dəhlizin artan əhəmiyyətinə də diqqət çəkilib.

Qeyd edək ki, SPECA 1998-ci ildə yaradılıb. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir. 2023-cü ildə SPECA-ya sədrliyi Azərbaycan həyata keçirir.

Mirbağır YAQUBZADƏ
XQ

Ekspert rəyi

Təbriz YADİGAROV,
ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent

Qloballaşan dünya iqtisadiyyatının inkişaf tendensiyası göstərir ki, artıq planetin geosiyasi reallıqları maraqların mərkəzini bir regiondan digərinə çevirərək satış bazarlarının Avropadan Asiyaya doğru dəyişməsinə istiqamətlənib. BMT-nin məlumatına görə, dünyanın 30 ən böyük şəhərindən 21-i siyasi və geoiqtisadi amillərlə əlaqədar olaraq Asiya ölkələrində yerləşir.

Hazırda dünya düzənindəki dəyişikliklərlə əlaqədar regional təşkilatların rolu əhəmiyyətli dərəcədə artır. BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının Azərbaycan və region ölkələri üçün əhəmiyyəti yüksəkdir. Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında birgə investisiya fondlarının yaradılması, növbəti 3 ildə 1 milyard dollardan artıq qarşılıqlı investisiyaların həcmi ilə bağlı razılığın əldə edilməsi də diqqət çəkir. Artıq respublikamız Mərkəzi Asiya ölkələri ilə sənaye kooperasiyası, maşınqayırma, avtomobil sənayesi, gəmiqayırma və kənd təsərrüfatı,o cümlədən, pambıqçılıq, ipəkçilik, bağçılıq və heyvandarlıq sahələrində bir çox layihələr həyata keçirir. Bundan əlavə, mehmanxana biznesi və turizm sahəsində investisiya layihələrinin həyata keçirilməsi üzrə geniş işlər aparılır. Mərkəzi Asiyadan olan şirkətlərin Azərbaycanda yaradılmış Ələt Azad İqtisadi Zonasına marağı daha da artır.

Yeri gəlmişkən, Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarlarına gedən yolda və əks istiqamətdə etibarlı tranzit ölkədir. Mərkəzi Asiyada Azərbaycanın bütün nəqliyyat və logistika infrastrukturu üzrə aparılan uğurlu işlər bu əlaqələrin inkişafında mühüm rol oynayacaq. Şərq–Qərb marşrutu üzrə yükdaşımalara artan tələbatını ödəmək üçün Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu yolda yük daşınmasını getdikcə artırır. Bununla yanaşı, Bakı Ticarət Limanının imkanları 15 milyon tondan 25 milyon tona çatdırılacaq.

Prezident İlham Əliyevin təşəbbüsü ilə daha böyük həcmdə tranzit yüklərin cəlb edilməsi üçün tariflərin optimallaşdırılması, tənzimləyici və gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması təmin edilərək Mərkəzi Asiya ilə ticarət əlaqələri genişlənir. Bütün bunlar onu göstərir ki, Azərbaycan BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramın icrasında həlledici rol oynayaraq SPECA-nın fəal iştirakçısı kimi dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsində bundan sonra da əhəmiyyəti rol oynayacaq.

Rasim Ocaqov–90

"Qatır Məmməd"i xilas edən rejissor

Hər rejissor filmləri, tamaşaları ilə örnək ola bilmir. Rasim Ocaqov məhz belə rejissorlardandır. Onu ustad kimi tanıdan neçə-neçə istedadlı yetirməsinin olmasıdır.



Rasim Ocaqov Şəkidə dünyaya gəlib. Uşaqlıqdan foto ilə maraqlanıb. Həvəskar şəkillər çəksə də, geoloq olmaq istəyib. Bir dəfə Şəkiyə sənədli film çəkən qrup gəlibmiş. Rasim Ocaqov peşəkarların necə işlədiklərini görmək üçün onların yanına gedib. O gün möcüzəli kino aləmi onu özünə elə çəkib ki, gənc fotoqraf bu sənətə könül verib. Orta məktəbi bitirdikdən sonra Moskvada Ümumittifaq Dövlət Kinemotoqrafiya İnstitutunun kinooperatorluq fakültəsində təhsil alıb. 1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator kimi çalışmağa başlayıb. "Bir cənub şəhərində", "Bizim küçə" filmləri onun kamerası ilə çəkilib. "Əsl dost", "Bizim küçə", "Mən rəqs edəcəyəm", "Sən niyə susursan?" və "Skripkanın sərgüzəşti" filmlərində Azərbaycan kino operatorluğu sənətinin layiqli nümunələrini yaradıb.

Lakin bir gün hiss edib ki, içində aşıb-daşan yaradıcılıq istəyi kamera ilə kifayətlənmir. Rejissor kimi film çəkmək istəyib. Bu arzu ilə də M.A.Əliyev adına ADİİ-nun rejissorluq fakültəsinə daxil olub. Ali məktəbi bitirəndən sonra iki il kino çəkmək arzusunu həyata keçirə bilmir, ona film vermirlər.

Bir gün "Azərbaycanfilm"in rəhbəri onu çağırıb və deyib ki, Moskvanın qəbul etmədiyi bir filmi sənə yenidən işləmək üçün verirəm, bacarsan, rejissor olacaqsan, bacarmasan, kino üzünə həsrət qalacaqsan. Beləliklə, "Qatır Məmməd" filmi Rasim Ocaqova həvalə olunub. Rejissor filmi yenidən ərsəyə gətirib və film nümayişə buraxılır. O vaxtdan Rasim Ocaqov quruluşçu-rejissor kimi çalışıb. "Ad günü", "Bağlı qapı", "İstintaq", "Onun böyük ürəyi" filmlərini çəkib. 1990-cı ildən "Ocaq" studiyasını yaradaraq sevimli işini müstəqil davam etdirməyə başlayıb. "Tütək səsi", "Özgə ömür", "Park", "Təhminə", "Bağlı qapı", "Həm ticarət, həm ziyarət", "Ölsəm, bağışla" filmləri Ocaqov yaradıcılığının məhsuludur. Rasim Ocaqov yalnız içindən keçənləri, yaşadıqlarını ortaya qoyan rejissorlardan idi. Ona görə də çəkdiyi filmlər sevilir və illər sonra da tamaşaçıda təsirsiz ötüşmür. Sonuncu filmi "Otel otağı" olub. İnsan mənəviyyatı, onun sirli dünyası filmin əsasını təşkil edib.

Azərbaycanın Xalq artisti Rasim Ocaqov 2006-cı ildə 73 yaşında ürək çatışmazlığından dünyasını dəyişib.

Xalq yazıçısı Anar:

– Mən Rasim Ocaqovu uzun illərdir tanıyırdım. Moskvada oxuyarkən tanış olmuşduq. O, mükəmməl operator olduqdan sonra rejissorluq arzusuna düşüb. Onunla iki filmdə məmnuniyyətlə çalışmışam. Rasim Ocaqovun bütün fikirləri, bütün həyatı kino ilə bağlı idi. İstedadlı rejissor, gözəl insan, fədakar dost idi, lakin çəkiliş meydançasına gələndə onun fikrini dəyişmək çox çətin olurdu. Bizim fikirlərimiz hər zaman 100 faiz üst-üstə düşməsə də, mən onunla birgə işimizi minnətdarlıqla xatırlayıram.

Xalq artisti Hacı İsmayılov:

– Mənim həyat və yaradıcılığımda Rasim Ocaqov böyük rol oynayıb. Mənə kinematoqrafiyanın sirlərini açıb. Rasim Ocaqov yaradıcılığı bütöv məktəbdir. O, öz həyatı və filmləri ilə bizi bu gün də isidən ocaqdır. Onun filmlərində dərin vətənpərvərlik hiss olunurdu.

Xalq artisti Rasim Balayev:

– Çəkiliş meydançasında həddən artıq ciddi idi. Mən çox şeyləri ondan öyrənmişəm. Bəzən ifalarım teatrdakı kimi alınırdı. Onda Rasim məni saxlayıb deyirdi ki, kino sadəliyi sevir, kinoda zərif oynamaq lazımdır. Biz Rasim Ocaqovun yoxluğunu hiss edirik və vaxt keçdikcə, daha çox hiss edəcəyik. Təsəllimiz budur ki, o, mənalı həyat yaşadı və gözəl əsərlər yaratdı.

Xalq artisti Fəxrəddin Manafov:

– Rasim Ocaqov çox xeyirxah, maraqlı insan idi. Qüsursuz kino zövqü vardı. Əlbəttə, yaradıcılıq mübahisələrimiz də olurdu. Amma mən sonra yaxınlaşıb onu qucaqlayıb öpürdüm. Tanrıya minnətdaram ki, Rasim Ocaqov kimi müəllimim olub.

Ramilə QURBANLI
XQ

Sənətinin "Səməndər quşu"

Onu xatırlayanda yadıma "Mən uşaq olmamışam" adlı avtobioqrafik romanı düşür. Ehtiyac ucundan Lənkəranda kinoteatrın qarşısında təndir çörəyi satan balaca Firudinin obrazı həzin duyğular oyadır. Soyuqda çörəkləri sinəsinə sıxırmış ki, qızınsın. O illərin əks-sədası olan monoloqu sanki qulaqlarımda səslənir: "Biz uşaq olmamışıq. Uşaq ikən yaşlılarla çiyin-çiyinə işləyib mübarizəyə qoşulduq. Bu günlərin eşqinə, Vətənin qüdrəti naminə oddan-alovdan keçib mənalı bir ömür yaşadıq".



Yazıçı Firudin Ağayev, həqiqətən də, mənalı ömür yaşayıb. ADU-nun filologiya fakültəsini bitirdikdən sonra ömrünün sonuna qədər milli teleradioda çalışıb. Redaktorluq pillələrini birbir keçib, şöbə müdiri və baş redaktor olub. "Səhər görüşləri" kimi maraqlı verilişləri, "Skripkanın sərgüzəşti", "İşarəni dənizdən gözləyin" kimi filmləri ilə tanınıb. Eyni zamanda, Firudin Ağayevin hekayə, povest və romanları əl-əl gəzib. "Qayıq dənizə çıxır", "Qardaşlar", "Səni düşünürəm", "İldırım dənizə çaxır", "İldırım ömrü" və sair kitabları bu qəbildəndir.

Firudin Ağayev elə kəslərdən idi ki, biliyinə, mədəniyyətinə, mehribanlığına, xeyirxahlığına heyran qalmaq üçün bircə görüş kifayət edirdi. Televiziyada işdən çıxanda onunla bərabər üzüaşağı – ta indiki "İçərişəhər" metro stansiyasına qədər piyada getməyi hər birimiz gözəl fürsət bilir, yolboyu maraqlı söhbətlərini dinləyirdik. O, əsl məktəb idi: ədəbiyyat məktəbi, televiziya məktəbi, insanlıq məktəbi...

Unudulmaz yazıçının 90 illik yubileyi ərəfəsində oğlu – tanınmış rejissor Namiq Ağayevlə xatirələrə daldıq. Qənimət insanlardan olmuş işıqlı şəxsiyyəti bir daha yad elədik.

– Çox tələbkar, yeri düşəndə sərt, yeri düşəndə romantik insan idi atam, – dedi Namiq müəllim. – Ömrü kitabların arasında keçirdi, belələrinə kitabman deyirlər, məncə. Universitet illərində Əli Sultanlı, Mir Cəlal Paşayev kimi böyük pedaqoqlardan dərs alıb, "Nizami" təqaüdü ilə oxuyub. Onun tələbə yoldaşları arasında Yaşar Qarayev, Ağacavad Əlizadə kimi məşhurlar olub. Sonralar Nəbi Xəzri, Hüseyn Arif, Xəlil Rza, Qulu Xəlilov, Nahid Hacızadə, Lütfi Məmmədbəyovla yaxın dostluq edib.

Rəhmətlik Elşad Quliyevlə atam lap uşaq yaşlarından yoldaşlıq ediblər. Elşad müəllim atamla bağlı xatirələrində deyirdi ki, bir gün Lənkəranda dəcəllər mənə badalaq vurub yıxdılar, bu vaxt haradansa Firudin peyda oldu, onlar Firudini görən kimi qaçdılar. Firudin əlini uzadıb mənim qalxmağıma kömək elədi, sonra qardaş sevgisi ilə: "Səni görüm heç vaxt yıxılmayasan", – dedi...

Firudin müəllim özü də həyatda heç vaxt yıxılmadı. Təmiz adının üstündə yarpaq kimi əsdi. Teymur Əliyevin (Teymur Elçin) sədr olduğu vaxtdan AzTV-də işləyirdi, sonra Elşad Quliyev ora sədr gəldi və çox yaxın münasibətləri oldu. Firudin müəllimin bütün təşəbbüsləri, təklifləri birmənalı olaraq qəbul edilir və televiziya məkanında maraqla qarşılanırdı.

Yazıçının ilk oçerk və hekayələri universitet qəzetində işıq üzü görüb. "Ananın məktubu" hekayəsi 1956-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc edilib. Bundan sonra oçerk, hekayə, roman, pyes və ssenari sahəsində məhsuldar fəaliyyət göstərib. "Skripkanın qayıtması", "Həyat, söylə sən kiminsən?", "Leyla və onun dostları" ssenarilərinə telefilmlər çəkilib, "Qayğı", "Cırtdanın sərgüzəştləri", "Xoruz" və başqa pyesləri səhnələşdirilərək dəfələrlə oynanılıb və uğur qazanıb.

Filologiya elmləri doktoru, professor Vaqif Yusiflinin dedikləri:

– Firudin Ağayevi 70-ci illərin sonlarından tanıyırdım. O, mənim bir neçə yazımı oxuyandan sonra televiziyaya dəvət elədi və mən bir çox verilişə qatıldım. Onun necə mahir redaktor, rejissor, hətta dirijor olduğunu hiss elədim. Öz işinin ustası idi. Hər cümləyə, hər nüansa diqqət yetirirdi. Televiziya onun qanında, ruhunda idi.

Bir də dəniz vurğunu idi – Lənkəranda, Xəzərin sahillərində doğulmuşdu. İlk əsəri "Qayıq dənizə çıxır" olub. Onun hekayə və povestlərində dəniz obrazı xüsusi önəm kəsb edir. Özü də dəniz kimi saf idi...

Mailə Muradxanlının, Flora Xəlilzadənin, Etibar Babayevin və başqalarının da Firudin Ağayevlə bağlı maraqlı xatirələri var. Hamısı da onun yüksək mədəni səviyyəli, səmimi, tələbkar və eyni zamanda, qayğıkeş olduğunu vurğulayır. Namiq Ağayevin dediyinə görə, atasının sonuncu tədbirində jurnalist mikrofonu ona tərəf uzadaraq soruşub ki, insanda ən çox dəyər verdiyiniz nədir?, – o da qısaca: "Səmimiyyət", – deyə cavab verib.

...Əfsanəyə görə, Səməndər quşu balalarının qanad açıb uçduğunu görəndə sevincindən polad dimdiyini çaxmaq daşı olan caynağına vuraraq qov əmələ gətirib. Elə pyeslərindən biri "Səməndər quşu" adlanan müəllimimiz Firudin Ağayev özü də sənətinin Səməndər quşu idi...

Əli NƏCƏFXANLI
XQ

Pakistanda xeyriyyə bazarı

Azərbaycanın Pakistandakı səfirliyi İslamabad şəhərində bu ölkənin Xarici İşlər Nazirliyinin Qadınlar Assosiasiyası tərəfindən təşkil olunan ənənəvi xeyriyyə bazarında iştirak edib.

Tədbirdə bir sıra xarici dövlətin Pakistandakı səfirlikləri və yerli şirkətlər iştirak ediblər.

Azərbaycan səfirliyinin stendində ölkəmizin milli yeməklərindən və şirniyyatlarından ibarət müxtəlif təamlar iştirakçılara təqdim olunub, o cümlədən tariximizin və mədəniyyətimizin təcəssümü olan suvenirlər nümayiş etdirilib.

Pakistanın birinci xanımı Samina Alvi, ölkənin xarici işlər naziri Cəlil Abbas Gilani və digər rəsmi qonaqlar Azərbaycan stendini ziyarət edib, ölkəmizin milli mətbəxinin nümunələri, eləcə də suvenirlərdən ibarət sərgi ilə tanış olublar.

Xeyriyyə bazarında Azərbaycan səfirliyinin stendindən əldə olunan vəsait Qadınlar Assosiasiyasının fonduna köçürülüb.

Qulu KƏNGƏRLİ,
XQ-nin xüsusi müxbiri

İslamabad

Yeni nəşrlər

Azərbaycan dili tarixinin öyrənilməsinə dəyərli töhfə

Görkəmli dilçi alim, AMEA Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədlinin ana dilimizin tarixinə işıq salan qiymətli bir mənbəni – Əbdürrəhim Ərdəbili Şirvaninin "Məzhər üt - türki" adlı klassik dərsliyini aşkara çıxarıb, tədqiq edib kitab şəklində oxuculara çatdırması ciddi elmi nailiyyətdir.



Əslən Güney Azərbaycanın Ərdəbil şəhərindən olan dərslik müəllifinin əlyazmasının tərtibçisi və şərhlərin müəllifi kimi Nadir müəllim əhatəli tədqiqat işi aparmışdır. Alim 30 səhifəlik "Ön söz"də dilimizin inkişaf yolunun, qrammatik və leksik normalarının tarixi təkamülünün öyrənilməsi baxımından yeni mülahizələr irəli sürmüş, türkoloqlar, şərqşünaslar, bir sözlə, linqvistoloq mütəxəssislər üçün dəyərli bir elmi mənbə ərsəyə gətirmişdir. Nadir Məmmədlinin "Ön söz"ü türk, ingilis, fransız dillərinə çevirməsi onun xarici aləmdə də maraq doğurub yayılması üçün önəmlidir.

Kitabla tanış olmağa başlayanda müəllifin adı və dərsliyə (risaləyə) vaxtilə qoyulmuş sərlövhə mənə tanış gəlmədi. Bu nəşrlə tanışlıqdan sonra aydın oldu ki, dərsliyin müəllifinin "Şirvani" təxəllüsünü götürməyinin səbəbi gənclik, yeniyetməlik illərində bir müddət Şirvanda – Şamaxıda yaşaması olmuşdur. Nadir Məmmədli bu barədə "Ön söz"də məlumat verir. Klassik metodiki vəsaitin sərlövhəsindəki "məzhər" sözü tanış gəlməsə də, "it-türki" kəlməsi Kaşğari "Divanı"nın adını xatırlatdı. Ərəb dilində "məzhər" sözünün dilimizə tərcüməsi "bir şeyin zahir olduğu yer; təzahür; yetişmə, nail olma" deməkdir.

Yəni dərslik müəllifi – Əbdürrəhim Ərdəbili Şirvani oxucusuna anladır ki, tarixən türk – Azərbaycan dili bu yerlərdə yaranmış, minilliklər boyu inkişaf etmiş, xalq isə əsrlər boyu onu yaşatmışdır. Azərbaycan türkcəsi əzəmətinə, gözəlliyinə və rəvanlığına görə heç də ərəbcədən, farscadan geri qalmır, onu bu yad sistemli dillərin təsiri altında əridərək məhv etmək Allah qarşısında böyük və bağışlanılmaz günahdır.

Tərtibçi Əbdürrəhim Ərdəbili Şirvanin "Məzhər üt - türki" dərsliyini Azərbaycan Səfəvi imperiyası ərazisində Qızılbaş türkcəsinin qrammatik qaydaları və leksik tərkibini öyrənmək üçün yazılmış ilk vəsait kimi səciyyələndirərək göstərir ki, müəllif "Məzhər üt-türki"nin əlyazmasının müqəddiməsində bu barədə məlumat verir və onu "gözəl türk dili" kimi təqdim edir. Səfəvilərin hakimiyyətə gəlişi zamanından Nadir şah Əfşarın hakimiyyətinədək, təxminən 250 illik bir dövrdə "Məzhər üt-türki"dən savayı, Azərbaycan türkcəsi barədə qrammatika və leksika ilə bağlı mənbə olmadığı üçün bu kitabın əhəmiyyəti dil tariximiz üçün əvəzsizdir.

Professor Nadir Məmmədlinin "Ön söz"də toxunduğu məsələlərin hər biri ciddi elmi mahiyyət daşıyır, geniş oxucu kütləsi üçün maraq doğurur. İrəli sürülən mülahizələr, elmi ümumiləşdirmələr bu klassik dilçilik əsərinin müasirlərimiz üçün gərəkliyini bir daha əsaslandırır. Dilçiliyə dair elmi qaynaqların sırasında layiqli yer tutacaq yeni kitab Nadir Məmmədlinin ana dilimizin tarixinin və nəzəri əsaslarının dərindən öyrənilməsinə dəyərli töhfəsidir.

Mahirə HÜSEYNOVA,
filologiya elmləri doktoru,
professor

Mədəniyyət xəbərləri

Turizm imkanlarımız beynəlxalq sərgidə

Ölkəmizin turizm imkanları Qətərin paytaxtı Dohada keçirilən "Qatar Travel Mart" sərgisində nümayiş etdirilir.

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə xüsusi formada dizayn edilmiş milli stenddə ziyarətçilərə Azərbaycanın tarixi, milli mətbəx nümunələri, ekoturizm, dağ-xizək mərkəzləri, sağlamlıq və qış turizmi imkanları haqqında ətraflı məlumat verilir.

Milli stenddə ölkəmizi Azərbaycan Turizm Bürosu ilə yanaşı, ümumilikdə, 7 yerli turizm sənayesi tərəfdaşı təmsil edir. Sərgi çərçivəsində iştirakçı turizm sənayesi nümayəndələri ilə "Biznesdən biznesə" formatlı görüşlər keçirilir, qarşılıqlı əməkdaşlıq imkanları sərfnəzər edilir.

Qeyd edək ki, Azərbaycan Respublikasının Qətər Dövlətindəki səfiri Mahir Əliyev milli stendi ziyarət edərək, sərginin gedişatı ilə tanış olub. Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid sərgi çərçivəsində "Dünya səviyyəli dayanıqlı destinasiya və xidmətlərin yaradılması" mövzusunda panel diskussiyada iştirak edib.

Beynəlxalq sərgidə 60 ölkədən dövlət və özəl sektoru təmsil edən 250 turizm sənayesi nümayəndəsi iştirak edir və sərgiyə minlərlə çox ziyarətçi qatılıb.

"Azad ruhlar" şaddır...

Azərbaycan İstiqlal Muzeyinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş "Qəhrəmanlar can verir, yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində "Azad ruhlar" adlı növbəti tədbir-sərgi açılıb.

Muzeydən bildirilib ki, tədbirdə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan gizir Hüseyn Qasımovun, baş çavuş Kamil Şixmuradovun, əsgər Orxan Teymurlunun, kiçik çavuş Murad Xəlillinin, əsgərlər Əhməd Mollaçiyevin, İmam Əliyevin və Elvin Məlikməmmədovun əziz xatirələri yad edilib.

Sərgidə Xaçmaz rayon Tarix-Diyarşünaslıq Muzeyinin səyi ilə toplanaraq, muzey fondlarında qorunub saxlanılan Vətən müharibəsi şəhidlərinin şəxsi əşyaları, fotoşəkillər, sənədlər və müxtəlif hərbi geyimlər nümayiş olunur.

Tədbirdə şəhid ailələri, Heydər Əliyev adına hərbi institutun, 5 nömrəli Texniki Peşə məktəbinin tələbələri, "Gənc Könüllü" Gənclərin İnkişaf və Karyera Mərkəzinin və UNEC-in könüllüləri, digər qonaqlar iştirak ediblər.

Sərgi bir həftə davam edəcək.

Ə.DOSTƏLİ
XQ

ABŞ-da irqi və dini ayrı-seçkilik həddini aşır

Son illərdə, xüsusən SSRİ-nin dağılmasından sonra dünyaya "demokratiya", "insan haqları" ixracı sahəsində xüsusi canfəşanlıq göstərən ABŞ-da irqi zəmində çoxsaylı cinayətlərin baş verdiyini müşahidə edirik. Bu cinayətlər əsasən irqi və dini zəmində baş verir. Məlum olur ki, heç bir günahı olmayan ABŞ vətəndaşları sadəcə dərilərinin rənginə görə təqib olunur, döyülür, qəddarcasına öldürülür. Üstəlik, sonradan bu cinayətlərin üstü açılmır, ölüm hadisəsinə görə kiminsə adekvat cəza aldığını görmürük.

Bu günlərdə də qaradərili insanın ABŞ-da cəza çəkdiyi həbsxanada kamera yoldaşı tərəfindən öldürüldüyü barədə "ABC News" saytında məlumat yayılıb. Artıq Corciya ştatının səlahiyyətli orqanları insanın "dərisinin rənginə görə" döyülərək öldürüldüyü "irqi motivli" qətli araşdırmağa başlayıb.

Cinayət ştatın Kleyton dairəsindəki Consboro həbsxanasında törədilib. Bu barədə dairənin şərifi L.Allen bəyan edib. Onun sözlərinə görə, məhkum Xakes Cekson "kamera yoldaşını, sadəcə, dərisinin rənginə görə əlləri və ayaqları ilə qəddarcasına döyüb, başını unitaza çırpıb və öldürüb". Allen qətlə yetirilən məhbusun adını açıqlamayıb.

"İstintaq zamanı məhbus Cekson bir neçə dəfə müstəntiqlərə deyib ki, meksikalıları, latın amerikalılarını sevmir və onları öldürmək istəyir", – Allen bildirib. Saytın bununla bağlı sorğusuna Kleyton şərifinin cavabında deyilir ki, qatilə qarşı qəsdən adamöldürmə, ağırlaşdırıcı hallarda hücum və qiyama cəhd ittihamı irəli sürülüb.

Amma bu hadisə ABŞ-da irqçilik və rasizm halları ilə bağlı ilk cinayət deyil. Əslində, bu ölkədə irqi cinayətlərin yaşı ABŞ-ın tarixi qədər qədimdir. Bu ölkədə ən çox irqçilik halları qara, qırmızı dərililərə, Latın Amerikası, Meksika, Asiya vətəndaşları və yəhudilərə qarşı törədilib.

Hətta XİX əsirin ortalarında baş vermiş müharibələr də ABŞ-da irqçiliyə son qoya bilməyib. Belə bir vaxtda "Ku Kluks Klan" adlı irqçi qruplar meydana çıxıb. Bu qrup ilk dəfə olaraq 1865-ci ildə Amerikanın konfederasiya ordusunun veteranları tərəfindən ölkənin cənubunda yaradılıb. Həmin qrup qaradərililər və miqrantlarla mübarizə aparıb, onların mədəni azadlığı və hüquqlarının əleyhinə çıxış ediblər. Onların hətta xüsusi paltar və papaqları da olub. Onlar ağdərililərin cəmiyyətin üstün təbəqəsi olması fikri ilə razılaşmayanlara qarşı edam hökmü elan edib, zorakılıq üsullarına əl atıblar.

Amerika tarixinin "qara səhifələrini" ifşa edən Martin Lüter Kinq hələ keçən əsrin 60-cı illərində özünün tolerantlıqla

bağlı arzularını belə ifadə edirdi: "Arzum budur ki, irqçiliyin dəhşətli dərəcədə yayıldığı, "məhv etmək" və "müdaxilə etmək" sözlərinin dildən düşmədiyi bu torpaqlarda bir gün ağdərili və qaradərili oğlan və qızlar əl-ələ verərək bacı-qardaş kimi gəzsinlər".

Ağdərililərin Amerikasında quldarlığa və irqçiliyə qarşı mübarizə aparan bu şəxs 1968-ci ildə məhz qaradərili olduğu üçün qətlə yetirilmişdi. Kinqin gerçəkləşməyən Amerika arzusundan 50 il keçir və bu gün də ABŞ-da rasizm çiçəklənməkdədir. Görünür, ənənələr unudulmayıb və Vaşinqtonun dünyaya insan haqları dərsi vermək iddiasının əksinə olaraq, bu gün də uğurla davam etdirilir.

Misal üçün, bəzi faktlar. 2015-ci ilin yazında qaradərili gənc Mixael Broun ağdərili Darren Uilson tərəfindən vurularaq öldürülüb. 2020-ci il avqustun 21-də Luiziana ştatında baş vermiş daha bir hadisə: 31 yaşlı afroamerikalı Treyford Pelleri polis tərəfindən saxlanılarkən, yəqin ki, aqibətinin yaxşı olmayacağını düşünərək qaçmağa cəhd edib. Lakin amansız polislər onu güllələyərək öldürmüşdülər. Pellerinin bədəninə 10-a qədər atəş açılmışdı. Bundan sonra etiraz aksiyaları ölkənin bütün ərazisinə yayılmış, geniş iğtişaşlar baş vermişdi.

Ölkədə irqi diskriminasiya ilə bağlı ABŞ-ın Ədliyyə Nazirliyi də xüsusi bəyanatla çıxış edib. Bəyanatda qaradərili bir gəncin ağdərili polis tərəfindən öldürüldüyü Ferqüson qəsəbəsində polisin qaradərili insanlara qarşı irqçi davranış nümayiş etdirdiyi bildirilir. Nazirliyin hesabatında polisin qaradərili insanların hüquqlarını bir neçə dəfə pozduğu qeyd edilir.

2020-ci il mayın 25-də isə ABŞ-ın Minneapolis şəhərində afroamerikalı Corc Floyd öldürülüb. İnternetdə Floydun saxta əskinaslarla ödəniş etməsi şübhəsi ilə saxlanılması anının videogörüntüsü yayılıb. Ağdərili polis afroamerikalının qoluna qandal vuraraq onu yerə yıxıb və sonra dizi ilə boynunu sıxıb. Floyd bu vəziyyətdə 9 dəqiqə saxlanılıb. Videoda onun nəfəs ala bilmədiyinə görə qışqırdığı, ancaq polisin buna əhəmiyyət vermədiyi görünür. Nəticədə, Floydun ürəyi dayanıb.

Bu amansız cinayət ölkədə səbr kasasını daşıran son damla olub. Qətllə bağlı təkcə ABŞ-da deyil, dünyanın əksər ölkələrində rasizmə qarşı geniş miqyaslı nümayişlər keçirilib. Amma görünən budur ki, özünü "demokratiya və azadlıq beşiyi" hesab edən, okeanın ortasında Azadlıq heykəli ucaldan bu ölkədə irqi və dini ayrı-seçkilik, bu xüsusda ikili standartlar hələ də hökm sürməkdədir. Axı, nə vaxta qədər?..

Paşa ƏMİRCANOV
XQ

İdman

Qadın şahmatçıların Avropa gümüşü

Azərbaycanın qadın millisi komandalararası Avropa çempionatında uğurla çıxış edərək tarixində ilk dəfə gümüş medal qazanıb. İdman ictimaiyyəti, şahmat həvəskarları ilə yanaşı, hər bir azərbaycanlı qızlarımızın tarixi qələbəsi ilə qürur duyur.

Qızlarımızın ilk turlardan sona kimi liderlər qrupunda mübarizə aparmaları onların yaxşı formada olmasından xəbər verir. Komanda üzvlərindən 3-ü – Günay Məmmədzadə, Gülnar Məmmədova və Xanım Balacayeva fərdi nəticələrə əsasən də, mükafatalayiq yerlər tutublar. Onlar, həm də öz lövhələri üzrə gümüş medal alıblar. Son turda millimizin heç də zəif təsir bağışlamayan Serbiya yığmasını da məğlub etməsi onların əzmkar xarakteri və komanda ruhunun yüksək olması ilə bağlıdır.

Tanınmış qadın şahmatçımız Zeynəb Məmmədyarova ilə söhbətimiz zamanı da o, məhz yığmada möhkəm birliyin dönməz komanda ruhunu yaratdığını bildirdi:

– Yığmamızın qazandığı nəticə möhtəşəmdir. Komandamız 3-cü yerdə qərarlaşan Fransadan 3 xal üstündür. Qızlarımız çempionluğa layiq oyunlar nümayiş etdirdilər. Rəqiblərə qarşı yüksək səviyyədə mübarizə aparan komandamızın üzvlərinin əldə etdiyi qələbə bizdə fəxarət hissi doğurur. Sevindirici haldır ki, artıq qadın komandamız da kişi şahmatçılar kimi "Top-3"-də yer alırlar. Qızlarımız çox güclü şahmat biliyinə sahibdirlər. Qadın şahmatının inkişafı üçün Azərbaycan Şahmat Federasiyası tərəfindən kompleks tədbirlər həyata keçirilir. Qızlarımızın hazırlığında belarusiyalı məşqçi Mixail Şereşevskinin əməyini də xüsusi vurğulamaq lazımdır. Bu nailiyyət şahmatın qızlar arasında inkişafına böyük təkan verəcək.

Avropa çempionatında əldə edilən bu böyük uğur yeniyetmə və gənc şahmatçılarımız üçün gözəl motivasiyadır. Hazırda İtaliyada 14, 16 və 18 yaşlı qız və oğlanlar arasında dünya birinciliyində iştirak edən yığmamızın üzvləri böyük ruh yüksəkliyi ilə mübarizəni davam etdirirlər. 94 ölkədən 1000-ə yaxın şahmatçının mübarizə apardığı yarışa yeniyetmələrdən və gənclərdən ibarət komandamızın baş məşqçisi Fərid Abbasovun rəhbərliyi ilə yollanan şahmatçılarımız da yüksək nəticə qazanmaq üçün ciddi səy göstərirlər.

Fərid Abbasov "Xalq qəzeti"nə verdiyi açıqlamasında qadın komandamızın Avropa çempionatında qazandığı gümüş medalın parlaq nəticə olduğunu qeyd etdi:

– Bu böyük qələbə qadın şahmatçılarımızın güclü potensialını göstərdi. Bu, yığmamızın hazırlığı istiqamətində Gənclər və İdman Nazirliyi, həmçinin federasiya tərəfindən görülən tədbirlərin bəhrəsidir. Təqdirəlayiq haldır ki, komandamızın üzvlərinin əksəri gənclərdir. Ümumiyyətlə, son illər qızlar arasında şahmat kütləvi hal almağa başlayıb. Elə hazırda davam edən dünya birinciliyində 18 yaşlı qızlar arasında Ayan Allahverdiyeva ilk turlardan liderlik edir. Ötən 7 turun nəticəsinə əsasən, o, 1-ci pillədə qərarlaşıb. Aşağı yaş qruplarında da qızlar arasında istedadlı şahmatçılar yetişir.

Medal kolleksiyasında 3 qızıl (2009, 2013, 2017), 1 gümüş (2011), 1 bürünc (2007) olan kişilərdən ibarət yığmamız yarışı mükafatsız başa vurub. Bir tərəfdən Azərbaycan yığmasının komandalar arasında Avropa çempionatının reytinq favoriti olması, digər tərəfdən güclü heyət yüksək nəticəyə böyük ümidlər verirdi. Heyətində elitar şahmatçılar Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, son dünya kubokunda göstərdiyi oyunlarla dünyanın diqqətini cəlb etmiş Nicat Abasov, yığmaya həlledici qələbələr qazandıran Rauf Məmmədov, Vasif Durarbəyli Rusiya, Ukrayna kimi komandaların iştirak etmədiyi bu yarışda çempionluğu hədəfləmişdilər. İlk görüşdə gözlənilmədən Danimarkaya məğlub olan yığmamız sonrakı iki turda ardıcıl qələbə qazanıb azarkeşlərdə qələbəyə ümid yaratsa da, sonrakı qarşılaşmalar o qədər də uğurlu olmayıb. Belə ki, komanda Xorvariya, Yunanıstan, Moldovaya uduzub, Monteneqro, Belçika üzərində qələbə qazanıb. Son turda İtaliya yığması ilə heç-heçə edib. Bu nəticə ilə yığmamız turnir cədvəlinin xeyli aşağı sıralarında, 18-ci yerdə qərarlaşıb.

Leyla QURBANOVA
XQ

Ermənistan ksenofobiya, antisemitizm və şovinizm ağuşunda

Ermənistanda hər zaman etnosentrizm, ksenofobiya və millətçilik kimi anlayışlar hakim mövqedə olub. Bu ideologiya dövlət başçıları səviyyəsində də təbliğ edilib. Buna görə də başqa xalqların nümayəndələri Ermənistanda özlərini həmişə yad kimi hiss ediblər. Ermənilər özlərini həmişə gülərüz, qonaqpərvər göstərsələr də, monoetnik ölkə kimi həmişə digər millətlərə aqressiv olub, erməni olmayanlara qarşı qəddarlıq nümayiş etdiriblər. Bu günlərdə İrəvanda keçirilən futbol qarşılaşmasından sonra qonaq komandanın azarkeşləri erməni qəddarlığının şahidi olublar.

AVRO–2024-ün seçmə qrup mərhələsində İrəvanda keçirilən Ermənistan–Uels qarşılaşmasını uelsli azarkeşlər heç vaxt unutmayacaqlar. Ona görə yox ki, futbol adına gözəl mübarizə, qol anlarını müşahidə etdilər. Əsla! Britaniya təəbələri Ermənistanda polis vəhşiliyi ilə üzləşiblər və regionun "demokratik" dövlətinin polis "qonaqpərvərliyinin" sərt üzünü görüblər. Belə ki, Uels millisinin azarkeşi Ermənistanda polis tərəfindən, üstəlik, silahla saxlanıldıqdan sonra həyatı üçün ciddi qorxu keçirdiyini bildirib. 35 yaşlı Gerin Uilliams adlı şəxs BBC News-ə deyib ki, ötən cümə günü erməni polisi tərəfindən heç bir səbəb olmadan həbs edilib. G.Uilyamsın sözlərinə görə, erməni polisi onu 12 saat yeməksiz və susuz saxlayıb. Bundan əvvəl, uelsli azarkeş həyatı üçün o qədər qorxub ki, şənbə gecəsi Avropa futbol seçmə yarışı başlamazdan əvvəl Vətəninə qayıdıb.

G.Uilyamsın dediyinə görə, o, oyun ərəfəsində dostları ilə otelə gedərkən həbs edilib: "Yoldan keçərkən çox sayda polis maşınının olması diqqətimi çəkdi. "Mən buna əhəmiyyət vermədim və onların arasından keçib getdim, sonra polis mənə hücum etdi. Təxminən, beş-altı nəfər idilər, məni yıxdılar, təpiklədilər, əllərimi qandallayıb mikroavtobusun arxasına atdılar". Mikroavtobusdan düşəndən sonra polislər G.Uilyams və digər azarkeşləri də bölmələrə aparıblar. "Bölməyə daxil olanda otaq adamla dolu idi, hamını divara söykəyərək, üstlərini yoxlayırdılar. Sonra bizi ayrı-ayrı otaqlara apardılar",– deyən uelsli azarkeş əlavə edib ki, bir neçə saat ərzində heç kim onlarla ünsiyyət saxlamayıb: "Bizi sadəcə otaqlara apardılar və bu otaqda olduğumuz müddətdə bir polis məmuru bizi izləyirdi. O, bizimlə, ümumiyyətlə, danışmadı və əslində, üç saat otaqda yatdı".

"Otaq təmiz deyildi, bizi orada saxladılar və gözləməyimizi söylədilər. Durmadan niyə burada olduğumuzu və nə qədər gözləməli olduğumuzu soruşurduq. Bizə dedilər: bir saat, bir saat, bir saat. Yadımdadır, bir oğlan bir stəkan su istədi və polis tualeti göstərdi və ona gedib oradan içməyi söylədi". G.Uilyamsın sözlərinə görə, azarkeşlərdən bəziləri sual verəndə polislər qışqıraraq onları qorxutmağa çalışıblar: "Onlar, həqiqətən, çox qorxudurdular, bir anda polislərdən biri silahla otağa girdi və silahı üzümüzə tuşladı. Onların reaksiyasından qorxduğumuz üçün sual vermək belə istəmədik". G.Uilyams həbs edildikdə səfirlik ilə əlaqə saxlayaraq kömək istəyib. Səfirliyin nümayəndələri bölməyə gələrək polis nümayəndələrini yola gətirməyə çalışıblar. Lakin diplomatlar da erməni polis özbaşınalığı ilə üzləşiblər və saxlanılan azarkeşlərə vaxtında hüquqi yardım göstərə bilməyiblər. Binada 12 saat qaldıqdan sonra G.Uilyiams və digər azarkeşlər polis bölməsindən otelə qayıdıblar.

Oteldəki nömrəsində bir az istirahət edən G.Uilyams gecikmədən yaxınlarına zəng etdiyini bildirib: "Yuxudan oyandıqdan sonra qardaşıma və dostlarıma dedim ki, evə getməliyəm, daha burada qalmaq istəmirəm. Beləliklə, biz bilet bron edib Vyanaya, oradan isə evə uçduq. Özümü təhlükəsiz hiss etmirdim, polislərin geri qayıdacağından qorxurdum və narahat olurdum ki, matça baxmağa getsəm, yenə belə bir hadisə baş verə bilər. Son bir neçə saat biz orada saxlanılarkən, sadəcə olaraq, canımız üçün qorxurduq. Hətta bir anda qaçmağa çalışmaq haqqında düşündük. Bu, dəhşətli təcrübə idi". Səfirlik rəsmiləri hadisə ilə bağlı polislə əlaqə saxlamağa davam edəcəklərini bildiriblər.

Göründüyü kimi, ən monoetnik ölkə kimi şovinizm, millətçilik, faşizm və antisemitizm kimi mənfi keyfiyyətlər Ermənistan cəmiyyətinin bütün təbəqələrinə nüfuz edərək kök salıb. Ksenofobiya, antisemitizm və şovinizm müasir Ermənistanın qəddar reallığıdır. Onilliklər ərzində Ermənistan davamlı olaraq irqçilik və ksenofobiya siyasətini davam etdirərək XXI əsrə bu biabırçı statusla qədəm qoyub. İndi Ermənistanı əzizləyən və hər imkanda dəstəkləyən Qərb sakinləri erməni qəddarlığını öz dərilərində hiss etmək imkanı tapdılar.

S.ELAY
XQ

"Azərişıq" ASC

"0.4 kV elektrik xətlərində sabit və dəyişən gərginliyi ölçən tək xətt üzrə elektrik axını olan elektron cihazların" satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. 0.4 kV elektrik xətlərində sabit və dəyişən gərginliyi ölçən tək xətt üzrə elektrik axını olan elektron cihazların satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat"Azərişıq" ASC
H/h-AZ83AIIB33020029441802068118
VÖEN-9900069391
Benefisiarın Bankı"Kapital Bank"ın Gənclik filialı
Kod-200189
VÖEN-9900003611
M/h-AZ37NABZ01350100000000001944
SWIFT Code:AIIBAZ2X

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib edilmiş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

Əlaqələndirici şəxs - Emil Əliyev (telefon-440-39-93 daxili 29-18). emil.aliyev@ azerishiq.az

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə.
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış.
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7.İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı.
8. İddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.
10. İddiaçının fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar.
11. İddiaçının potensial imkanları haqqında texniki-iqtisadi məlumatlar.
12. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
13. İddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmamaları haqqında arayış.
14. İddiaçının son 3 ildə oxşar işlə bağlı yerinə yetirilmiş ən azı 5 (beş) milyon manatlıq müqavilə haqqında məlumat.
15. İddiaçının son 3 il ərzində idxal olunmuş elektron ölçü cihazlarının müqaviləsi və yaxud müvafiq təsdiq edici gömrük sənədləri haqqında məlumat.
16. İddiaçının istehsalçı və yaxud rəsmi nümayəndəliklə partnyorluq müqaviləsi haqqında məlumat.

Qeyd– tələb olunan sənədlər tam təqdim edilmədiyi halda, iddiaçının ixtisas göstəriciləri meyarlarına uyğun gəlmədiyi hesab edilərək müsabiqədən kənarlaşdırılacaqdır.

Tender təklifi:(zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı; (təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır.)

Sənədlər Azərbaycan dilində 2(iki) nüsxədə (1 əsli və 1 surəti tərtib olunmalıdır (xarici dildəki məlumatlar Azərbaycan dilinə tərcümə edilməlidir).

Arayışların verilmə tarixi cari ay və il üçün qoyulması məcburidir.

Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq edilməlidir.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir

(https // etender.gov.az/)

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank təminatı istisna olmaqla 11 dekabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 19 dekabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 20 dekabr 2023-cü il saat 15.00-da Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"Azərişıq" ASC-nin
tender komissiyası

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 254 (30370) 22 noyabr 2023-cü il, çərşənbə

İdman xəbərləri

Voleybolçularımız Ukraynaya məğlub olublar

Şərqi Avropa Zonal Assosiasiyası (EEVZA) çempionatında 18 yaşadək voleybolçu qızlardan ibarət Azərbaycan millisi növbəti oyununa çıxıb.

Yığmanın Latviyanın Dauqavpils şəhərində Ukraynaya qarşı oyunu rəqibin 3:0 hesablı qələbəsi ilə başa çatıb. Millimiz bundan əvvəl Latviya kollektivinə də eyni hesabla məğlub olub. Noyabrın 26-dək davam edəcək çempionatda millimiz digər oyunlarını Gürcüstan, Litva, Estoniya və Polşa yığmalarına qarşı keçirəcək.

Yarış "Avro-2024"ə seçmə xarakteri daşıyır.

U-19 millimiz mübarizəni dayandırıb

19 yaşadək futbolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatının seçmə mərhələsində 11-ci qrupdakı sonuncu matçında Lüksemburq ilə üz-üzə gəlib.

Aqil Nəbiyevin baş məşqçisi olduğu kollektiv 1:2 hesabı ilə rəqibə uduzaraq mübarizəni dayandırmalı olub. Qrupun digər görüşündə Niderland Bosniya və Herseqovinaya qalib gəlib - 3:0. Bu komandalar elit-raunda vəsiqə qazanıblar.

Qeyd edək ki, Bosniya və Herseqovina ilə qolsuz heç-heçə edən U-19 millisi Niderlanda 1:2 hesabı ilə məğlub olub.

Çelenc kuboku: "Xarı Bülbül" ilk matçda iştirak edib

Çelenc kubokunda kişi voleybolçulardan ibarət "Xarı Bülbül" növbəti oyununu keçirib.

Şuşa təmsilçisi 1/16 finalın ilk matçında Yunanıstanın "Panatinaikos" klubu ilə üz-üzə gəlib. Bakıda Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində baş tutan qarşılaşmada qonaqlar 3:0 hesablı qələbə qazanıblar. Rəqib komanda ilə cavab oyunu noyabrın 29-da Yunanıstanda olacaq.

Qeyd edək ki, Çelenc kubokunun 1/32 finalında "Xarı Bülbül" Slovakiyanın "Spartak" komandasını hər iki görüşdə məğlub edib (3:0, 3:1).

Leyla SABİRQIZI
XQ

Hava

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, noyabrın 22-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Lakin gecə və səhər yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 6-9°, gündüz 12-15° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 80-90 , gündüz 55-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək, gün ərzində əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi

əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 13-17° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

Q. QASIMOV
XQ

OXUCULARIN NƏZƏRİNƏ!

"Xalq qəzeti"

2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.

Hörmətli oxucular!
ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

Texnologiya yenilikləri

"Apple" sümük qulaqcıq yaradır

"Apple" şirkəti ABŞ-da bir simsiz qulaqlığın patentini alıb. Bu qulaqlıq bu günə kimi gördüyümüz bütün qulaqlıqlardan fərqlidir, çünki səs sümük vasitəsilə qulağa ötürüləcək. Sözügedən qulaqlıq AirPods 3 modeli olaraq təqdim ediləcək. Nəticə etibarilə simsiz qulaqlıq sahəsində yeni bir cığır açılacaq.

Qeyd edək ki, sümükdən səs alma texnologiyası xeyli müddətdir mövcud olsa da, bəzi səbəblərdən kütləvi istehsalı başlanmayıb. "Apple" şirkəti bu texnologiyanı bir sıra fərqliliklərlə yenidən gündəmə gətirib.

Cihazda 1-dən çox səs modulu olacaq ki, bu da daha keyfiyyətli və yüksək səs effekti deməkdir. Əgər layihə reallaşarsa, bu qulaqlıq vasitəsilə həm qulaqlığın ehtiva etdiyi səsləri, həm də olduğumuz məkandakı səsləri eşidə biləcəyik. Həmçinin onun suyun altında işləmək xüsusiyyəti də olacaq.

XQ

Ekologiya

Qızılağac "Flaminqo festivalı"

Azərbaycanda, Qızılağac Milli Parkında ilk dəfə "Flaminqo festivalı" keçirilib. Tədbirdə Azərbaycanın qorunan ərazilər şəbəkəsini, iqlim dəyişməsinin biomüxtəlifliyə təsiri və bioloji müxtəlifliyin hazırkı vəziyyətini əks etdirən stendlər, məlumat lövhələri, milli parkların təbiətinə, flora və faunasına aid tanışlıq guşələri, suvenirlər, həmçinin Qızılağac Milli Parkına aid rəmzlər nümayiş olunub.

Festivalda dövlət qurumları, qeyri-hökumət təşkilatları, universitetlər və beynəlxalq təşkilatların nümayəndələri, eləcə də milli parkı ziyarət edən turistlər iştirak ediblər.

Dünən axşam saatlarınadək davam edən tədbirdə iştirakçılar Qızılağac Milli Parkı ərazisində qayıq və kvadrasikllarla gəzərək, körfəz ərazisində quş koloniyalarını müşahidə ediblər.

Festival çərçivəsində 1 milyon çəkikimi balıq körpəsi Qızılağac Milli Parkının körfəz ərazisinə, milli parkın faunasına xas olan turac quşları isə təbiətə buraxılıb.

XQ

Sağlamlıq

Soyuqdəymə – boyun əymə!

Havaların dəyişməsi soyuqdəymələri artırır. Yoluxmadan təbii yolla qorunmaq və sağalmaq olar. Mütəxəssislər bu qidalardan mütləq istifadə etməyi tövsiyə edirlər:

Sarımsaq virus və bakteriyalarla mübarizə aparır.

Balın orqanizmə ümumi gücləndirici təsiri var.

İtburnu immun sistemini möhkəmlədir, virus və mikrobəleyhinə təsir edir.

Balıq sinklə zəngindir. Sink isə immunitet üçün çox vacibdir.

Süd məhsulları (kefir, qatıq, yoqurt) bağırsaqların mikroflorasını yaxşılaşdırır.

Kökdəki A vitamini ilə orqanizmin yoluxucu xəstəliklərə qarşı müqaviməti artır.

Bolqar bibəri də immun sistemini möhkəmləndirir.

Kələmin istənilən növləri (ağ kələm, gül kələmi, brokkoli və s.) immunitet üçün çox faydalıdır.

Su selikli qişaların nəmliyini saxlayır. Ətraf mühitdən orqanizmə düşən bakteriyaları, mikrobları məhv edir.

Z.HÜSEYNLİ
XQ

Teatr

Naxçıvan Teatrı Bakının qonağı olub

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə "Qonaq teatr" layihəsi çərçivəsində noyabrın 20-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı "Edama məhkumun son günü" (Viktor Hüqo) psixoloji dramı ilə Bakıda tamaşaçılar qarşısında çıxış edib.

Tamaşada edama məhkum edilmiş şəxsin son günündə keçirdiyi duyğular əks olunur, edamla yanaşı, yazılmamış iyrənc və rəzil qanunlar, bu cür qanunların fiziki ağrılardan daha çox mənəvi ağrılara səbəb olması ön plana çəkilir.

Tamaşadan sonra Teatr Xadimləri İttifaqı sədrinin vəzifə səlahiyyətlərini icra edən, Xalq artisti, Dövlət mükafatı laureatı Hacı İsmayılov Naxçıvan Dövlət Milli Dram Teatrını yubiley münasibətilə təbrik edib, teatrın keçdiyi şərəfli inkişaf yolundan danışıb.

Sonda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov anadan olmasının 65 illiyinə görə, teatrın baş rejissoru Mir Qabil Əkbərov "Edama məhkumun son günü" tamaşasının uğurlu quruluşu münasibətilə ittifaqın fəxri fərmanı ilə təltif edilib.

XQ

Hadisə

Batman yerinə, Amsterdama?

Türkiyə hava limanında qəribə hadisə baş verib. Ankaradan Batmana gedən sərnişinlər səhvən Amsterdama gedən təyyarəyə miniblər. Sərnişinlər arasında gedən dialoqdan məlum olub ki, onların bir qismi Batmana, digərləri isə Amsterdama uçmağa hazırlaşırlar. Bu da sərnişinlər arasında anlaşılmazlığa səbəb olub.

Sərnişinlər hadisəni videolentə alaraq sosial media hesablarında paylaşıblar: "Hazırda Ankara–Amsterdam reysindəyik. Avtobusla təyyarənin qarşısına gəldik. Uşaq arabasını təhvil vermək istəyəndə sərnişinlərdən biri "bu Batman təyyarəsi deyil?" deyə soruşdu. Biz də "qardaşım, nə Batman, bu Amsterdama gedir" dedik. O da Amsterdama deyil, Batmana getdiyini dedi. Hazırda hamımız çaşqınlıq içindəyik. Nə edəcəyimizi bilmirik".

Tezliklə problem həll olunub. Belə ki, Batmana səyahət edən sərnişinlər



təyyarədən endirilib, digər sərnişinlər isə Amsterdama yola salınıb.

Fidan SALMANOVA
XQ

✓ *"Azəristiliktəchizat" ASC-yə məxsus yük avtomobilinin İBA seriyalı, 053419 nömrəli yol vərəqəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *2020-ci ildə 2 nömrəli "Asan" Xidmət tərəfindən Xankişiyeva Şəhanə Muxtar qızının adına verilmiş AA seriyalı, 1556166 nömrəli şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

ALLAH RƏHMƏT ELƏSİN

Asif Əsgərov Zaqatala rayon prokuroru Rasim Musayevə atası

BƏBİR MÜƏLLİMİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 3056
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00